# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 073 (7241)

1 may 2025-ci il.
Qiyməti 60 qəpik

## Böyük Qayıdış: Sarıcalının dinamik inkişaf dövrü



6

## Qeyri-neft sektorunda davamlı inkişaf




2

Prezident İlham Əliyev: "Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq"

# İrəvan niyə narahatdır?

*Tbilisinin İrəvana sözü, Pezeşkianın səfəri və ermənilərin sülh anlayışı*



5

### Dağlar qoynundakı müasir şəhər və yenidən qurulan Laçın



8

### "Vətəndaşları saxta vədlərlə aldatma halları hər keçən gün artmaqdadır"



10

### Bakıda ucuz evi necə və harada almaq olar?



16

### Zənginlərə BƏD XƏBƏR: Maltada "qızıl pasport" almaq qadağan edildi!



16

### May ayında niyə toy şənliyi keçirmək olmaz?



11

# Qeyri-neft sektorunda davamlı inkişaf

## Prezident İlham Əliyev: "Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq"

Ərazi bütövlüyünü və suverenliyini təmin etmiş Azərbaycan Cənubi Qafqazda əsas söz sahibinə çevrilib, regional və beynəlxalq mövqelərini getdikcə möhkəmləndirib, iqtisadi sahədə ciddi irəliləyişlərə, regionların sürətli inkişafına nail olub. Prezident İlham Əliyevin Azərbaycanın bölgələrinə mütəmadi səfərləri regionların sosial-iqtisadi inkişafına təkan verməklə, aparılan işlərlə yerində tanış olmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Ölkəmizin hər yerində abadlıq-quruculuq işləri sürətlə reallaşır. Qusar da bu sırada olan məkanlardandır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Qusar rayonunda ”İsmikhanlı” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) bağçılıq və soyuducu anbar kompleksi ilə tanış olub. Cəmiyyət tərəfindən Qusarda 330, Ağsuda isə 30 hektar ərazidə ən son texnologiyalar əsasında intensiv bağlar salınıb. Hazırda burada 230 hektar sahədə alma, 35 hektarda armud, 26 hektarda şaftalı, 21 hektarda nektarin, 18 hektarda isə gilas ağacları əkilib. Bu cür bağların salınması kənd təsərrüfatı təyinatlı torpaqlardan maksimum səmərəli istifadəyə və yüksək məhsuldarlıq əldə etməyə imkan verir.

Burada yetişdirilən meyvələrin satış və ixrac prosesi il boyu davam etdirilir. Məhsullar yerli bazara çıxarılmaqla yanaşı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Rusiyaya ixrac olunur.

Bağlarda aqrotexniki işlərin daha dəqiq və səmərəli görülməsi məqsədilə Türkiyə, İtaliya və İspaniyadan mütəxəssislər cəlb olunub. Burada yüksək qənaətliliyə malik damcı suvarma texnologiyasından istifadə olunur ki, bu da həm ekoloji davamlılığı təmin edir, həm də su itkisinin qarşısını alır. Təsərrüfatın texnika parkı dünyanın aparıcı şirkətlərinin müasir avadanlıqları ilə təchiz olunub.









Soyuducu anbar kompleksi 2023-cü ilin oktyabrında istifadəyə verilib. Kompleks 8 min 700 ton tutuma malik soyuducu meyvə anbarından, çeşidləmə və paketləmə sahəsindən, material anbarından, hazır məhsul və yükləmə hissələrindən ibarətdir. Soyuducu anbar hər biri 300 ton tutuma malik 29 soyutma kamerası ilə təchiz edilib. Layihə dəyəri 18 milyon manat olan ”İsmikhanlı” bağçılıq və soyuducu anbar kompleksində 270 nəfər daimi, 400 nəfər isə mövsümi işlə təmin olunub. Layihənin reallaşmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3,3 milyon manat güzəştli kredit ayrılıb. Müəssisə avadanlıqların idxalı zamanı gömrük və vergi güzəştlərindən yararlanıb. Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına təkan vermişdir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb.




### ”AZƏRBAYCAN BÖLGƏLƏRİNİN ÜMUMİ İNKİŞAFI HƏM SOSİAL XARAKTER DAŞIYIR, EYNİ ZAMANDA, ÖLKƏMİZİ GÜCLƏNDİRİR”

Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanmışdı.

Dövlət başçısının regionlara səfərləri bölgələrin yüksəlişinin davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu bir daha təsdiqləyir. Azərbaycan Prezidentinin çıxışlarının birində qeyd etdiyi kimi, ”Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bizim bəyan etdiyimiz bütün hədəflər - ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir”.

*Ardı Səh. 3*

# Qeyri-neft sektorunda davamlı inkişaf

## Prezident İlham Əliyev: "Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq"

Əvvəli Səh. 2

Son illər respublikanın digər bölgələrdə olduğu kimi Qusar rayonunda da iqtisadiyyatın bütün sahələri inkişaf edir. Rayonda sahibkarlığın inkişaf etdirilməsi üçün iri istehsal, emal və xidmət müəssisələri özəlləşdirilmiş, rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatında Aqrar islahatlar başa çatdırılmışdır. Qusar rayonunda aparılan abadlıq-quruculuq işləri çərçivəsində parkların, yolların, sakinlərin ümumi istifadəsində olan yerlərin yenidənqurulması, əsaslı təmiri görülən işlər sırasındadır. Bu o deməkdir ki, artıq digər regionlarımız kimi, Qusarda da insanların rahat yaşayışı təmin olunub.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.




### CƏNUBİ QAFQAZDA ƏN BÖYÜK SƏNAYE PARKI

Bu gün Azərbaycanın bütün bölgələri, şəhər və kəndləri, qəsəbələri kimi Sumqayıt şəhəri də yeni inkişaf dövrünü yaşayır. Burada aparılan abadlıq-quruculuq işləri şəhərin gözəlliyinə daha bir rəng də əlavə edib. Dövlətimiz tərəfindən inkişafa və quruculuğa verilən töhfələr Sumqayıtın inkişafında da müstəsna əhəmiyyət daşıyır.



Prezident İlham Əliyevin hər dəfə Sumqayıta səfəri şəhərin inkişaf və yüksəlişinə töhfəsini verir. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, Sumqayıt tarixən kimyaçılar şəhəri kimi salınmışdır, Sovet İttifaqının kimya sənayesinin mərkəzi olmuşdur: "Bu gün isə Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib. Qarşıya məhz belə vəzifə qoyulub ki, Sumqayıtda ən müasir sənaye müəssisələri yaradılmalıdır. Bu, bizim ümumi sənaye potensialımızı gücləndirəcək, minlərlə, on minlərlə yeni iş yeri yaradacaq. Mən çox şadam ki, bu gün Sumqayıtda artıq icra edilmiş və icrada olan sahələr bu məqsədi təmin edib".

Son illərdə gücü 525 MVt olan Elektrik stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki və s. müəssisələr yaradılmışdır. Bu siyahını görülən işlərin məntiqi olaraq artırmaq olar. Bu və ya digər müəssisələrin istifadəyə verilməsi şəhərin inkişafının göstəricilərdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Sumqayıt Kimya Sənaye Parkında olub, "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin və "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodlarının açılışında iştirak edib. "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin istehsalı zavodunun açılışı olub. Hazırda Azərbaycanda 9 sənaye parkı və 4 sənaye məhəlləsi var. Sənaye zonaları üzrə indiyədək ümumi investisiya həcmi 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən artıq daimi iş yeri yaradılıb. Ötən müddətdə sənaye zonaları tərəfindən 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,2 milyard manatlıq hissəsi ixrac edilib. Azərbaycan Prezidentinin 2011-ci ildə imzaladığı Fərmanla yaradılan Sumqayıt Kimya Sənaye Parkı ölkəmizdə ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Ərazisi 613 hektar olan parkda neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Burada ümumi investisiyalarının həcmi təqribən 6 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, onlardan da 24-ü artıq fəaliyyət göstərir. Bu gün iki zavodun istifadəyə verilməsi ilə burada fəaliyyət göstərən müəssisələrin sayı 26-ya çatıb. İndiyədək Parkın rezidentləri tərəfindən ümumilikdə təxminən 14 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da təqribən 5 milyard manatlıq hissəsi ixracın payına düşür.







### 6 MİNDƏN ÇOX İNSANIN DAİMİ İŞLƏ TƏMİN OLUNDUĞU MÜƏSSİSƏ

Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ilin birinci rübü ərzində ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Hazırda burada 6 mindən çox insan daimi işlə təmin olunub. Parkda istehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilir. Tikinti kimyəvilərinin istehsalı zavodu ilə bağlı bildirildi ki, "Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Təməli 2023-cü ildə dövlətimizin başçısı tərəfindən qoyulan zavodun tikintisi üçün 2,5 hektar ərazi ayrılıb. Türkiyənin qabaqcıl avadanlıqları ilə təchiz olunan müəssisədə məhsul çeşidləri üzrə 7 istehsal xətti qurulub. Zavodun ümumi illik istehsal həcmi 295 min ton təşkil edir. Məhsul istehsalında istifadə edilən əsas xammal ölkədaxili resurslar hesabına təmin olunur. Yeni zavodun fəaliyyətə başlaması məhsul çeşidinin artırılması ilə yanaşı, daha əvvəl istehsal olunmayan məhsulların istehsalını təmin edərək idxalı əvəzləyəcək. Bununla yanaşı, məhsulların Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Rusiya və Gürcüstana ixracı nəzərdə tutulur. Dövlətimizin başçısı zavodu işə salıb. Burada sement əsaslı quru qarışıqlar, su izolyasiya, döşəmə materialları, sement üyüdücü qatqıları, beton qatqıları və onun əsas xammalı istehsal olunacaq. Zavodda hazırda 102 nəfər işlə təmin edilib. Növbəti mərhələdə isə işçilərin sayının 245 nəfərə çatdırılması nəzərdə tutulur.

### ÖLKƏNİN İXRAC COĞRAFİYASI GENİŞLƏNİR

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodunun açılışında iştirak edib. "Az-Tex-İmport" MMC 2022-ci ilin aprelində Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Bu müəssisənin təməli də elə həmin il dövlətimizin başçısı tərəfindən qoyulub. Müəssisə İtaliyanın "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobillərinin yığımını həyata keçirəcək. Layihənin ikinci mərhələsində avtomobillərin kuzalarının istehsalı da nəzərdə tutulur. Zavodda ildə 100 ədəd yük avtomobili və xüsusi texnika, 300 ədəd kuza istehsal olunacaq. Hər iki mərhələ üzrə müəssisədə 150 yeni iş yerinin yaradılması planlaşdırılır. Artıq layihənin birinci mərhələsi üzrə 96 nəfər işlə təmin edilib. Dövlətimizin başçısı müəssisəni işə salıb. Zavodda istehsal ediləcək məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici bazara çıxarılması da nəzərdə tutulur. "Az-Tex-İmport" MMC də Sumqayıt Sənaye Parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən faydalanıb. Ümumi investisiya dəyəri 19,2 milyon manatdan çox olan layihə Sumqayıt Kimya Sənaye Parkında 4 hektar ərazini əhatə edir. Yeni müəssisələrin fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafını sürətləndirəcək, ölkənin ixrac coğrafiyasını genişləndirəcək, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirəcək, məşğulluğun artırılmasına mühüm töhfə verəcək.

***Zümrüd BAYRAMOVA***

**Qlobal miqyasda baş verən dəyişiklikləri görməmək mümkün deyil. Dünya düzənindən olanlar hər kəsin diqqətini cəlb edir. Xüsusən də, qlobal iqtisadi sistemin necə dəyişdiyini görməkdəyik. Lakin etiraf etmək lazımdır ki, bunlar hələ başlanğıcdır. Çünki dünyamız, dünya sistemi, qlobal iqtisadi sistem dəyişikliklərin hələ astanasındadır.**

# Dünya qlobal DƏYİŞİKLİKLƏR ASTANASINDA



## Dünyanın dəyişikliklər astanasında olduğunun ABŞ lideri tərəfindən qəbul olunduğu hadisələrin gedişatında öz təsdiqini tapir

Bilirik ki, Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Tramp, demək olar ki, bütün idxal mallarına böyük tariflər elan edib. Onu da bilirik ki, belə bir "elan" etməsinə baxmayaraq, hələlik müxtəlif ölkələrlə danışıqlar aparmaq üçün həmin tariflərin tətbiqini doxsan gün müddətinə dayandırıb. Sözsüz ki, danışıqların əsas mövzusunun bu ölkələrlə son bir neçə onillikdə sənaye istehsalının Çin Xalq Respublikası ilə qarşılıqlı əlaqələrinə görə olduğu da bəllidir.

Hər halda, ABŞ kimi bir ölkənin prezidentinin, özü də ikinci dəfə hakimiyyətə qayıdan bir prezidentin, yəni təcrübəli bir liderin, Trampın diqqətindən Çinin "irəlidə" olması yayına bilməz. O, çox yaxşı bilir ki, Çin Xalq Respublikası təkcə iqtisadi deyil, həm də siyasi gücünü yetərincə, lap elə rəqib hesab olnacaq dərəcədə artırıb. Hər halda, onun bunu bilməsi fonunda müşahidə edilənlər, xüsusən də barəsində qeyd olunanlar anlaşılandır. Yəqin ki, səbəbsiz də deyil və ABŞ liderinin özü də dünyamızın dəyişikliklər astanasıda olduğunu qəbul edir. Nəinki qəbul edir, apardığı siyasət belə onu göstərir ki, dünyanın məhz həmin dəyişikliyin astanasında olduğunu etiraf da edir. Qısa və aydın şəkildə desək, dünyanın dəyişikliklər astanasında olduğunun ABŞ lideri tərəfindən qəbul olunduğu hadisələrin gedişatında öz təsdiqini tapir.

## Çin lideri özü də hadisələrə "həssas" yanaşır, müşahidə olunan "canfəşanlıq" diqqətdən yayınmır

Diqqətə çatdıraq ki, aprelin 14-də Çin prezidenti Si Cinpin məhz Vyetnam, Malayziya və Kamboca olmaqla, üç qonşu ölkəyə səfər edib. Onu da xatırladaq ki, onların, yəni həmin ölkələrin hamısı ixracatının əsas hissəsini ABŞ-a göndərir. Bəli, Çin prezidenti həmin ölkələri məhz ABŞ-ın öncədən proqnozlaşdırılması mümkün olmayan bir ölkə olduğuna, eləcə də Çinin daha etibarlı tərəfdaş olduğuna inandırır. Özü də çox böyük həvəslə bunu edir və hətta onlara birgə layihələr də təklif edir. Deməli, Çin lideri özü də müşahidə olunanlara "həssas" yanaşır. Daha dəqiq desək, Cinpin özü də heç Amerikanın, ABŞ prezidentinin "əl-ayağa düşməsinə" laqeyid deyil. Çünki başa düşür ki, amerikalılar "vəziyyəti" öz xeyirlərinə dəyişmək niyyətindədirlər. Ən azından müşahidə olunan "canfəşanlıq" qətiyyən diqqətdən yayınmır.

Hər halda çinlilər də bilirlər ki, onları rəqib hesab edən amerikalılar da "az aşın duzu" deyillər və belə bir məqamda "mübarizə" qaçılmazdır. Bu vaxta qədər Çin elə bir yol keçib ki, kobud şəkildə desək, ABŞ kimi ölkəyə bir "dərs" vermiş olub. İndi artıq həmin "dərsi" yaxşıca mənimsəyən amerikalılar da öz növbələrində "dinc" oturana oxşamırlar. Çin lideri bilir ki, Amerika bazarda, "ticarət yarışmasında" özünə yer eləmək, sükanı da ələ almaq üçün bütün vasitələrə mütləq əl atacaq. Əslində, ABŞ özünü məhz elə belə də tanıdıb. Bu hegemonluq niyyətində olan ölkə üçün vasitə deyə nəzərdə tutulanı nə qədər sadalasaq bitən deyil və ümid edirik ki, nəyə eyham vurulduğu bəllidir. Hətta o da bəllidir ki, dünya ictimaiyyəti buna artıq öyrəncəlidir də. Elə çinlilər də bununla bağlı kifayət qədər məlumatlıdırlar deyə, öncədən "hazırlıq" da görülür. Çox güman ki, Cinpinin səfəri də bu kontekstdə təsadüfi sayılmır. Çünki Çin lideri də yaxşı başa düşür və görür ki, dünyamız dəyişiklik astanasındadır və belə bir dəyişiklik astanasında da yaxşıca start götürməyi onun kimi həmkarı da, ABŞ prezidenti də canı-dildən istəyir. Deməli, artıq rəqabət çoxdan qəbul da edilib, etiraf da. Daha dəqiq desək, dəyişiklik astanasında olan dünyada rəqabətin bir qədər də artdığına zərrə qədər də şübhə yoxdur və bu məqamda gözlərin məhz dəyiliklikIərə dikilməsi tamamilə anlaşılandır.

## Cənub-Şərqi Asiyada bir çox sənaye sahələri o qədər inkişaf edib ki, onlara artıq açıq bazarda tələbat, ehtiyac duyulur

"Liberallar" totalitar sektadan fərqli olaraq, ciddi iqtisadiyyat elminin artıq on doqquzuncu əsrdə daxili bazarın qorunmasının, müdafiəsinin yeni sənaye sahələrinin inkişafının başlanğıcı üçün həyati əhəmiyyət kəsb etdiyini açıq şəkildə bəyan edirlər və bunun səbəbi də bəllidir. Məsələ burasındadır ki, bu sənayelər başqa ölkələrdə əvvəllər mövcud olanlarla ciddi rəqabət aparmaq üçün kifayət qədər təkmilləşdirilənlər kimi müdaxilə etməyə başlayırlar. Hal-hazırda, bütün Cənub-Şərqi Asiyada bir çox sənaye sahələri o qədər inkişaf edibdir ki, onlara artıq açıq bazarda tələbat, ehtiyac duyulur. Hətta ABŞ olmasa belə, ən azından Çin Xalq Respublikasında belə ehtiyac təkzibedilməzdir.

Etiraf etmək lazımdır ki, Çinin daxili bazarı artıq o qədər böyükdür ki, o, hazırda xaricə satılan məhsulların əhəmiyyətli bir hissəsini, eləcə də başqalarının ABŞ-a göndərdiyi məhsulların çoxunu "mənimsəyə" bilir. Bununla belə, Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası Çinlə hər hansı birgə layihələr naminə həmin Assosiasiyaya ixracı məhz riskə atmaq ehtimalını heç qəbul da etmir. Ona görə də məhz hər iki istiqamətdə əməkdaşlığı davam etdirməyə çalışacağı gözlənilir. Çinin bir çox qonşularının əsrlər boyu mürəkkəb münasibətlərinin olduğu da bəllidir. Eyni zamanda, Çin tərəfindən müstəmləkəçilik və hakimiyyət mübarizəsi tarixi də heç kim üçün qaranlıq deyil. Buna görə də, "yeni fəsadların" qarşısının öncədən alınması ehtiyacı fonunda mütləq şəkildə kənar dəstək barədə düşünülür. Amma Çin indi təkcə qonşuları ilə deyil, Avropa Birliyi ilə də ticarət edir və hətta belə demək mümkünsə, Afrikanı belə inkişaf etdirir...

## Müşahidə edilən rəqabət dinamik irəliləyiş üçün əsaslı zəmin yaradır, Çinlə hesablaşılır və bütün bunlar dəyişikliklər vəd edir

Belə çıxır ki, bütün dünyanın dəyişiklik astanasında olması istənilən halda yaxşıya doğru aparır. Yəni, ən azından nikbin proqnozlar üçün əsas var. Hadisələrin gedişi belə onu deməyə əsas verir ki, artıq müşahidə edilən rəqabət dinamik irəliləyiş üçün əsaslı zəmin yaradır. Bəlkə də sağlam rəqabət deyilən iqtisadi mübarizə arzu olunan, gözlənilən şəkildə deyil. Hətta ən inkişaf etmiş ölkələrin belə hazırki iqtisadi rəqabətdən narazı olması da başadüşüləndir. Təbii ki, özünü rəqabət meydanında görə bilməyən, yaxud, həmin rəqabətə dayanıqlılığında, davamlılığında müəyyən qədər geridə qalan ölkələr ağız büzə də bilərlər. Lakin görünən odur ki, bir zamanlar Amerika məhz Çini heç hesaba belə almadığı halda, indi elə hesablaşmaq məcburiyyətində qaldığını etiraf da edir. Səbəb məhz həmin iqtisadi rəqabətdir. Əgər bir zamanlar Çin öz sənayesinin inkişafına bu qədər "diqqət" etməsəydi, elə yenə də ABŞ kimi bir ölkə üçün hesaba alınmaz olaraq da qalacaqdı. Deməli, indi məhz Çinlə hesablaşılır və bu da rəqabətin müsbət nəticəsi olaraq qəbul edilir.

Sözsüz ki, qlobal güclər yenə də Çinin inkişafına, dünya miqyasında həm sənaye, həm də ticarət məsələlərində "bir neçə addım" öndə olmasına qısqanclıqla yanaşırlar. Bu qısqanclıq heç də səbəbsiz yaranmayıb. Belə ki, Avropa ölkələrinin əksəriyyətinin bir neçə şirkəti, bəlkə də böyük əksəriyyəti belə öz məhsullarını da hətta Çində istehsal edir. Daha dəqiq desək, əmək qüvvəsinin daha çox, eləcə də daha ucuz olduğu ölkə hesab olunaraq, Avropa ölkələrinin əksəriyyəti öz məhsullarını belə Çində istehsal etməklə, daha çox gəlir əldə etməyi, daha rentabelli olmağı doğru hesab edir. Nəticədə də Çin hətta Avropa ölkələrinə məxsus istehsal, sənaye sektorunda da "öz sözünü" deyir. Məhz elə bu fonda da avropalılar geri qaldıqlarını və hələ bundan sonra da eyni şəkildə davam edəcəyini yaxşı başa düşürlər. Başa düşürlər ki, indi Avropa bazarını "ələ alan" Çin məhsulları hələ bundan sonra daha böyük sürətlə bazarlara daxil olacaqlar. Əgər ABŞ bazarı belə artıq Çin məhsulları ilə dolubsa, amerikalıların böyük əksəriyyəti artıq açıq şəkildə "Made in Cina" yazısı olan məhsulların istifadəçiləridirlərsə, Amerika kimi bir ölkə bununla barışmaq məcburiyyətində qalıbsa, deməli, Avropa da bunun barışmalı olduğunu fərqindədir.

Əlbəttə ki, ABŞ hər zaman, hər sahədə hegemonluq iddiasında olduğu üçün məhz sənaye, iqtisadiyyat, ticarət sahəsində də belə bir iddiadadır və hələ Avropa "ayılmamış" Amerikanın dərhal Çinlə əlaqələri genişləndirmək niyyəti də bu baxımdan başadüşüləndir. Başadüşülən odur ki, ABŞ artıq Çinin məhz bayaq qeyd olunduğu kimi, bir neçə addım irəlidə olmasını nəzərə alaraq, həmin ölkəyə daha çox "maraq" göstərir. Belə bir maraq, əlbəttə ki, nəticəsiz də qala bilməz. Mütləq hansısa "dəyişikliklərin" olacağı ehtimalını təkzib də etmək mümkün deyil. Doğrudur, dəyişikliklərin hansı şəkildə olacağını proqnozlaşdırmaq bir qədər tezdir. Çünki barəsində qeyd olunan həmin o "tarif müharibəsi" qlobal iqtisadi sistemdə baş verən nəhəng dəyişiklik prosesinin yalnız bir hissəsidir. Hələ çox istiqamətdə dəyişikliklər gözlənilir. Əsas da odur ki, son nəticənin bütün dünya üçün faydalı olacağına inananlar çoxluq təşkil edirlər. Hər bütün bunlar göstərir ki, bütövlükdə dünyamız məhz dəyişikliklər astanasındadır...

***İnam Hacıyev***

# İrəvan niyə narahatdır?

*Tbilisinin İrəvana sözü, Pezeşkianın səfəri və ermənilərin sülh anlayışı*

***Ermənistanın ağrıları başlayıb, amma nəyə hamilə olduğu hələlik bəlli deyil. Əsas dərdi Azərbaycandır, deyə bilərik, amma qonşularına çamur atmağından da qalmır. Paşinyan uzaq Baltik dənizi sahilində özünə dost axtardığı bir vaxtda cənub qonşusu İranın Prezidenti Azərbaycana səfər etdi. Mislindən də artıq qarşılanma mərasimi oldu, ikitərəfli müqavilələr, müxtəlif sahələrdə əməkdaşlığı özündə əks etdirən sənədlər imzalandı. Üstəlik də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Qarabağı Azərbaycanın ayrılmaz hissəsi hesab etdiyini Bakıdan da bəyan etdi. Ermənilərin son ümidi də qırıldı, daha doğrusu, birdəfəlik dəfn edildi.***



Səfərdən aldıqları "təəssürat" erməni cə-



miyyətində bədbinlik tonusunu bir neçə dəfə qaldırıb. Əsəblər gərilib, günahkar axtarışına çıxanların sayı artıb, dövlət ərkanları hədəfə alınıb. Revanşistlərin əllərinə fürsət düşüb, hətta erməni xalqını talayan keçmiş prezidentlər, Xocalı qatilləri hakimiyyətin üzərinə daha iştahla yürüməkdədirlər. Niyə? Çünki Paşinyanın erməniləri "işğalçı" imicindən yayındırmaq üçün etdiyi cəhdlər bəhrəsini verməkdədir. Qonşularla intriqanın nələrə gətirib çıxartdığının əyani sübutu kimi 44 günlük müharibəni göstərən baş nazir revanşistlərə "yol xəritəsi"ni təqdim etsə də, cavab gecikir. İrana ümid bağlayan ermənilər düşünürdülər ki, proses onların planlaşdırdığı istiqamətdə inkişaf edəcək. Beynəlxalq qanunlardan bixəbər olan "hay"lar zənn edirdilər ki, İran bütün normaları pozacaq, Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərinin ermənilərə məxsusu olduğunu deyəcək, ya da buna işarə vuracaq. Amma, olmadı, Pezeşkian Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın kimə məxsusu olduğunu bəyan etdi.

## Çox böyük problem: nə etməli?

Erməni mətbuatı, "zəncir gəmirir", içində olan-qalan nə varsa çölə tökür, iftira yağdırmaqda davam edir. "Armenianreport" saytı "yaxşı, nə edəcəyik, necə reaksiya verəcəyik?", sualı ilə başlayan məqalə dərc edib. Onu qısaldılmış şəkildə təqdim etmək istəyirik: "Təkcə İran prezidenti Məsud Pezeşkiyanın Azərbaycana səfəri faktı ilə deyil, həm də onun Bakıda söylədiyi hər şeylə bağlı fikirlər birmənalı deyil. Pezeşkian orada çoxlu lazımsız sözlər dedi, yumşaq desək. "Azərbaycan xalqının hüquqlarına hörmət edilməli və Qarabağ Azərbaycanın olmalıdır" bəyanatından başlayaraq. Bunu o, azərbaycanlı həmkarı ilə görüşündə deyib. Bəs İran İslam Respublikası prezidentinin Qarabağ adlandırdığı "artsax" sakinlərinin hüquqları necə? Təkcə "artsax"ın deyil, həm də Ermənistan ərazilərinin bir hissəsinin işğalı ilə nə etmək lazımdır? Azərbaycanın "artsax"da etnik təmizləməyə görə məsuliyyəti necədir? Xeyr, Məsud Pezeşkian bu barədə heç nə deməyib. Həm də təkcə azərbaycanlı olduğuna görə yox. Biz sadəcə olaraq rəsmi Tehranın mövqeyinin dəyişməsini izləməklə məşğuluq.

Tehran Bakı ilə əlaqələrin qurulmasını sürətləndirməkdə o qədər qətiyyətli idi ki, İran prezidenti Azərbaycana Şəhid Rəcai limanında baş verən partlayışla bağlı ölkəsində milli matəm elan etdiyi gün gəlib. Bundan başqa, səfər günü dərhal bildirilib ki, Azərbaycanın Tehrandakı səfirliyinə hücumu törədən Yasin Hüseynzadəyə qarşı hökmün icrası ilə bağlı İranda bütün hazırlıq prosedurları başa çatıb. "İcra et, bağışlaya bilməz" cümləsində vergülün hara qoyulması sualının cavabı budur. Bəli, İran prezidenti müasir Azərbaycanın əslində nə olduğunu bizə xatırlatmaqdan həzz aldığını danmadı. "Burada olduğum üçün özümü yad ölkədə hiss etmirəm. Sanki Təbrizdə, Ərdəbildə olmuşam. Sanki doğulub boya-başa çatdığımız və yaşadığımız İran Azərbaycanındayıq", - o vurğulayıb.

Bu arada, eyni plana əsasən, İran Azərbaycanla dialoqun qurulması üçün hər şeyi etməyə dəyər verir. Bu da təbii ki, Ermənistanın İran üçün əhəmiyyətinin azalması kimi şərh edilə bilər. İstədiyiniz qədər inkar edə bilərsiniz, amma bu, reallıqdır. Buna əmin olmaq üçün mayın 8-də Azərbaycana dövlət səfəri edəcək İsrailin baş naziri Benyamin Netanya-



hunun ayın 11-nə kimi orada qalacağı xəbərini oxumaq kifayətdir. Səfər zamanı Netanyahunu həyat yoldaşı Sara müşayiət edəcək. Kanın sözlərinə görə, səfər zamanı Netanyahu Azərbaycan prezidenti İlham Əliyevlə iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi məsələlərini müzakirə edəcək. Bu müzakirələrdə İran məsələsinin xüsusi yer tutacağı aydındır. Bəli, Azərbaycan necə baxsan, bu münaqişədə də vasitəçi rolunu oynaya bilər. Bakının uğurlu vasitəçi olacağı danılmazdır. Təəssüf ki, Ermənistan belə bir rol oynaya bilmir. Əvvəla ona görə ki, İsraildə ölkəmizi bu statusda görmürlər.

Bir neçə gün əvvəl Bakıda İsrail və Türkiyə nümayəndələri arasında Suriyada tərəflər arasında toqquşmaların qarşısının alınması mexanizminin yaradılmasına həsr olunmuş görüş keçirilib. İsrail baş nazirinin səfərindən sonra may ayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da Bakıya səfər edəcək. Formal olaraq iki səfər arasında heç bir əlaqə yoxdur. Rəsmi olaraq Türkiyə mənbələri xəbər verir ki, Ərdoğan ikitərəfli hökumətlərarası komissiyanın dördüncü birgə iclasında iştirak etmək üçün Azərbaycan paytaxtına səfər etmək niyyətindədir. Ancaq biz hamımız böyüklərik və hər şeyi mükəmməl başa düşürük. İstisna deyil ki, rəsmi Bakının bütün bu hərəkətləri son nəticədə ABŞ prezidenti Donald Tramp tərəfindən də qiymətləndiriləcək.

Bəs Tramp "artsax"ın Azərbaycana məxsus olması ilə bağlı nəsə desə, rəsmi Bakı ilə yaxınlaşma kursu elan etsə, biz nə edəcəyik? Məsələ burasındadır ki, necə baxsanız da, hadisələrin bu cür inkişafının qarşısını almaq üçün heç bir real mexanizmimiz yoxdur. Və bu, çox böyük problemdir.

## Ermənistana səfər və...

Gürcüstan prezidenti Mixail Kavelaşvili Ermənistana rəsmi səfər edib, səfər zamanı həmkarı Vaaqn Xaçaturyan, baş nazir Nikol Paşinyan və bütün ermənilərin katolikosu II Qareginlə görüşüb. Gürcüstan nümayəndə heyətində prezident administrasiyasının rəhbəri Ketevan Kvinikadze, Xarici İşlər Nazirliyi rəhbərinin müavini Laşa Darsaliya, parlament sədrinin birinci müavini Georgi Volski, deputatlar Samvel Manukyan və Sumbat Kyuregiani də olub. Xaçaturyanla danışıqlardan sonra Kavelaşvili bəyan edib ki, Ermənistan Gürcüstanın ən mühüm ticarət tərəfdaşlarından biridir. O xatırladıb ki, 2024-cü ildə iki ölkə arasında strateji tərəfdaşlıq sazişi imzalanıb.

Prezidentlər öz respublikalarının ərazi bütövlüyünü tanıdıqlarına görə minnətdarlıqlarını bildiriblər, bundan sonra Kavelaşvili diqqəti Ermənistan-Azərbaycan münaqişəsinin həllinə yönəltmək qərarına gəlib. Onun sözlərinə görə, İrəvanı uğurlu və mütərəqqi etmək Tbilisinin maraqlarına cavab verir. Bu, digər məsələlərlə yanaşı, Cənubi Qafqazda sülh və sabitlik tələb edir. "Gürcüstan Ermənistan və Azərbaycanın 2025-ci il martın 13-də sülh sazişinin şərtləri üzrə danışıqların başa çatması ilə bağlı bəyanatını birmənalı olaraq alqışlayır. Biz hesab edirik ki, bu, Cənubi Qafqazın sülh, təhlükəsiz, sabit və inkişaf etmiş regionunun yaradılması üçün gələcək birgə səyləri tələb edən mühüm prosesin başlanğıcıdır. Ümid edirik ki, orada Ermənistan və Azərbaycan yaxın gələcəkdə sülhün pozitiv inkişafı ilə bağlı saziş imzalayacaq. Cənubi Qafqaz və regionun cəlbediciliyini keyfiyyətcə yeni səviyyəyə qaldırıb", - deyə Kavelaşvili vurğulayıb.

Xaçaturyan cavabında bildirib ki, Ermənistan Gürcüstanın Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üçün göstərdiyi səyləri yüksək qiymətləndirir. "Ümid edirik ki, biz Azərbaycanla sülh yarada bilərik. Ermənistan Gürcüstanın bu məsələdə dəstəyini yüksək qiymətləndirir... Biz sizin üçtərəfli platforma yaratmaq təşəbbüsünüzü və bu son dərəcə mühüm məsələdəki rolunuzu alqışlayırıq. Biz həmçinin bir sıra beynəlxalq, ərazi və qlobal məsələləri müzakirə etdik..." - Xaçaturyan bildirib.

Paşinyanla danışıqlar eyni mövzulara həsr olunub: ikitərəfli əməkdaşlıq, Cənubi Qafqazın inkişafı və Ermənistan-Azərbaycan münaqişəsinin həlli. Volski bunu Gürcüstanın regional təhlükəsizliyi təmin etmək potensialına malik olması ilə izah edib. Bütövlükdə, deputatın dediyi kimi, səfəri müşayiət edən simvolizm vacibdir. Kavelaşvili prezident kimi ilk xarici səfərini Azərbaycana, ikincisini isə Ermənistana edib. "Qonşularımızla, xüsusən də strateji tərəfdaşımızla münasibətləri inkişaf etdirmək bizim xüsusi maraqlarımızın sahəsidir", - Volski əmin edib.

Politoloq Gia Abaşidzenin verdiyi məlumata görə, Gürcüstanın Ermənistan və Azərbaycana marağının artması digər məsələlərlə yanaşı, Aİ nümayəndələrinin diplomatik əlaqələr qurmaq istəməməsi ilə bağlıdır. "Avropalı bürokratlar Tbilisidən inciyiblər, çünki o, öz dövlətçiliyinin qorunmasına yönələn qondarma Rusiya qanunlarını qəbul edir. Bunun fonunda Gürcüstan çoxvektorlu siyasətini davam etdirir. Xüsusilə, Kavelaşvili sələfi Salome Zurabişvilinin unudulmuş Ermənistan və Azərbaycana daha çox diqqət yetirmək qərarına gəlib, gələcəkdə isə Çinə səfərini gözləyə bilərik", Abaşidze bildirib.

Ermənistan-Azərbaycan münaqişəsinə gəlincə, ekspertin fikrincə, Gürcüstan Cənubi Qafqazın çiçəklənməsində maraqlıdır və bu cür qarşıdurmalara son qoyulmadan buna nail olmaq mümkün deyil. "Əvvəllər Tbilisi artıq İrəvan və Bakıya hərbi əsirləri azad etmək və minalanmış ərazilərin xəritələrini əldə etməkdə kömək edib. İndi biz görürük ki, Gürcüstan platformasında erməni və azərbaycanlı diplomatlar arasında dialoq qurulur. Gürcüstan da Ermənistan və Azərbaycanın iştirak edəcəyi iqtisadi layihələrin həyata keçirilməsində maraqlı olardı", - Abaşidze qeyd edib.

"Kavelaşvilinin səfəri mühüm və simvolikdir: bu, Gürcüstan prezidentinin dövlət başçısı vəzifəsinə seçildikdən sonra ilk xarici səfərlərindən biridir. Ermənistanla Gürcüstan arasın-



da münasibətlər nümunəvi və əhəmiyyətlidir, o cümlədən regional proseslər kontekstində. İndi hər zamankından daha çox mühümdür ki, birgə iqtisadi layihələrin həyata keçirilməsi üçün yeni təmas nöqtələri yaradılsın", Conni Melikyan deyib.

O qeyd edib ki, Aİ və ABŞ-dan olan ənənəvi tərəfdaşlarla münasibətlərdə mövcud böhran bütün müstəqillik illərində Tbilisi üçün ən



çətin sınaqlardan birinə çevrilib. "Bu kontekstdə qonşu dost dövlətlərin dəstəyi hər zamankından daha faydalı olacaq. Gürcüstanın Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə verdiyi töhfəni, eləcə də Tbilisinin Ermənistan və Azərbaycan arasında sülh prosesinə verdiyi yardımı qeyd etmək vacibdir. Ermənistan tərəfi Gürcüstanın səylərini və təşəbbüslərini həmişə yüksək qiymətləndirib və qiymətləndirir. Lakin bütün bu ikitərəfli və üçtərəfli əməkdaşlıq platformalarının yaradılması üçün Gürcüstanın əsasən Bakı ilə bağlı səylərini və təşəbbüslərini qiymətləndirir", deyə Melikyan yekunlaşdırıb.

***V.VƏLİYEV***

# Böyük Qayıdış:
## Sarıcalının dinamik inkişaf dövrü

*184 ailə (767 nəfər) əzəli torpaqda yurd salıb*

Ərazi bütövlüyümüzün bərpa edilməsi, münaqişənin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün Prezident İlham Əliyevin tutduğu qətiyyətli mövqe, ordu quruculuğuna, hərbi-sənaye kompleksinin inkişafına göstərdiyi diqqət və qayğı 44 günlük Vətən müharibəsində öz sözünü demiş oldu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoydu. Sülhsevər siyasət yürüdən Azərbaycan münaqişənin sülh, danışıqlar yolu ilə uzun müddət həllinə nail olmağa çalışsa da mümkün olmadı. XXI əsrin müharibəsini aparan Azərbaycan düşmən üzərində tarixi qələbəsini qazandı, doğma Qarabağımız əsl sahiblərinə qaytarıldı. Bu gün də qalib xalq olaraq ölkəmizə maraq sonsuzdur. Müharibədən sonrakı durum, Azərbaycanın mövqeyi diqqətdə saxlanılır. Bu Azərbaycanın dünya miqyasında olan yüksək imicindən qaynaqlanır.





### NÖVBƏTİ MƏRHƏLƏDƏ 35 AİLƏ - 158 NƏFƏR SARICALIYA KÖÇÜRÜLDÜ

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış ardıcıl olaraq davam edir. Keçmiş məcburi köçkünlər doğma yurda qayıdırlar. Daha bir köç karvanı Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə yol alıb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə 35 ailə - 158 nəfər köçürülüb. Bir gün əvvəl isə - aprelin 29-da kəndə 39 ailə - 169 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, 30 aprel 2025-ci il tarixindəki köç də nəzərə alınmaqla Sarıcalı kəndinə cəmi 184 ailə (767 nəfər) köçürülüb. Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri olan Sarıcalı kəndi işğal dövründə viran qoyularaq xarabalığa çevrilmişdi. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb. Bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Birinci mərhələ üzrə buraya 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

### ”ELƏ BİR AĞDAM QURACAĞIQ Kİ, BÜTÜN DÜNYA ÜÇÜN ÖRNƏK OLACAQDIR”

27 il sonra işğaldan azad olunan Ağdam da digər ərazilərimiz kimi, yeni dövrünə qədəm qoyub. Bu gün Ağdam yeni günün yaşayır və işğaldan azad olunan Ağdam Vətən müharibəsində qazandığımız parlaq qələbə nəticəsində bir güllə atılmadan düşmən tapdağından azad olundu. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsində baş tutdu və Ağdam Azərbaycana qaytarıldı. 27 il işğalda olun Ağdam viran qalmış bir məkana çevilmişdi. ”Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür” - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir. Erməni vandalları tərəfindən dağıdılan Ağdamın ”Qafqazın Xirosiması” adlandırılması da təsadüfü deyildi. Ermənistanın törətdiyi müharibə cinayətləri bütün dünyaya bəllidir. İşğalçı Ermənistan Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri - qanuni əməllər törədib. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış ardıcıl olaraq həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Alın tərinin günü olmaz:
# hər gün əmək, hər gün zəhmət

May ayının 1-i dünyanın 150-dən çox ölkəsində qeyd olunur. Bu günün məqsədi zəhmətkeşlərin haqqını tanımaq və onların hüquqlarını müdafiə etməkdir. Əvvəlcə müasir Avropa ölkələrində 1 May bahar bayramı kimi qeyd olunurdu, zəhmətkeşlərin günü kimi tanınmağa 19-cu əsrin sonlarında başladı. 1886-cı il mayın 1-də Çikaqoda işçilər səkkiz saatlıq iş günü və iş şəraitinin yaxşılaşdırılması tələbi ilə tətilə başladılar. Polislə toqquşmalar bir neçə gün davam etdi və mayın 4-də kulminasiya nöqtəsinə çatdı, 100-dən çox adam yaralandı. Bu hadisənin xatirəsinə 1889-cu ildə İkinci Beynəlxalq Paris Konqresi hər il mayın 1-də qeyd edilməli olan Beynəlxalq Zəhmətkeşlər Gününü təsis etdi.



Əmək, müəyyən məqsədə çatmaq üçün insan gücünün şüurlu, bəzən də şüursuz şəkildə istifadəsi, fiziki və ya zehni səydir. İbtidai insan da əməksevər olub, dövrümüzdə də insan əməyi qiymətlidir. Əmək bizə məsuliyyəti öyrədir, zəhmət bizə öhdəliklərimizi xatırladır. Əmək insanın özü və başqaları üçün əhəmiyyətli bir şey əldə etmək üçün etdiyi hərəkətlərdir. İş, hər bir insan üçün, ailə, cəmiyyət və ölkə üçün vacibdir. Planetimizdə yaxşı və faydalı hər şey insan əməyi ilə yaradılıb.

Əməklə məşğul olduğumuz zaman əzm, iradə, qətiyyət, məsuliyyət, problemlərin həlli və özünü idarəetmə bacarığı və daha nələr qazanırıq. Əmək bizi tərbiyə edir, desək, yanılmarıq. Zəhmətkeş insanın mənəviyyatı, əxlaqı zəhmətinə bərabər olur, o əməyin nə olduğunu bildiyi üçün xarakterinə də yaxşılıq yoğurlur. Əməyi ilə həyatını qazanan insanlar dünya üçün şansdır, hədiyyədir.

Düşünün, Misir piramidalarından kosmik gəmilərə qədər necə uzun bir əmək tarixi olub insanın. Dünya saysız-hesabsız insanın, davamlı nəsillərin nəhəng əməyinin nəticəsi deyilmi? Əmək olmasaydı mizraqla heyvan ovlayan ibtidai insan süni intellekt fenomenini yarada bilərdimi? Bütün bunlar əzmkarlığın, mətanətin, gücün, biliyin - əməyin meyvələridir.

Çətin, zəhmət tələb edən iş müəyyən bir məqsədə çatmaq üçündürsə bu yolda iradə, əzm lazımdır. Bu əzminə görə çalışqan insan, başqa üstün qabiliyyətləri olmasa da zirvəyə çatmağa qadirdir. Onun əzmkarlığı və qətiyyəti çalışdığı sahədə digər çatışmazlıqları kompensasiya edir və daim öz üzərində işləmək ona gündən-günə inkişaf etməyə və təkmilləşməyə imkan verir.

Əmək yalnız məqsədə çatmaq üçün bir yol deyil, həm də özünü təkmilləşdirmək üçün tərbiyə vasitəsidir. Öz üzərində işləmək, zəif cəhətlərini aradan qaldırmaq, daim yeni bilik və bacarıqlara can atmaq - bütün bunlar çoxlu zəhmət tələb edir. Biz, hər çətin görünən işi görəndə daha da güclənirik. Hər dəfə tənbəlliyə qalib gələndə imkanlarımızın hüdudlarını genişləndiririk. Hər dəfə yeni bir şey öyrənəndə daha təcrübəli və bacarıqlı oluruq. Zəhmət xarakteri gücləndirir, iradəni inkişaf etdirir və məsuliyyət öyrədir. Bu, bizə vaxta dəyər verməyi, daha intizamlı olmağı öyrədir.

Üstəlik, zəhmətkeşlik yaradıcı təfəkkürün inkişafına da təkan verir. Çətinliklərlə qarşılaşdıqda, problemləri həll etmək üçün yeni yollar axtarmağa, yaradıcı olmağa və qeyri-ənənəvi yanaşmalar tapmağa məcbur oluruq. Bu proses beynimizi aktivləşdirir və yaradıcılığı stimullaşdırır. Zəhmət, beyin və bədən üçün bir növ məşqdir. Davamlı işləyən insan qocalığa qədər gənc və enerjili qalır. Düşünün, zəhmətlə, əməklə bağlı nə qədər atalar sözləri, məsəllər var ki, zamanla doğruluğunun şahidi olmuşuq.

Həyatda uğur qazanmaq üçün əsas tələb zəhmətdir. Zəhmət təkcə maddi rifahı deyil, həm də özünü dərk etməyi, tanınmağı, başqalarına hörmət etməyi öyrədir. Çalışqan insan adətən öz peşəsində daha çox şeyə nail olur. Zövqlə işləyən, zəhmətinin nəticəsini görən insan özünü cəmiyyətə lazımlı hiss edir. O, özünə və qabiliyyətinə arxayındır, enerjili və həvəslidir. Zəhməti sevən insan daim öz bacarıqlarını artırır, yeni texnologiyalar öyrənir. Zəhmət həm işimizdə, həm də ailəmizdə uğur qazanmağa kömək edir. Çünki yaxşı ailə sahibi olmağın yolu da zəhmətdən, əməkdən keçir. Nə ilə məşğul olmağımızdan asılı olmayaraq - istər ağır fiziki əmək olsun, istər zehni fəaliyyət - yalnız zəhmətlə uğur qazana bilərik. Elmdə zəhmətlə fiziki əməkdəki zəhmət - hər ikisi insan əməyidir. İnsan əməyə kiçik yaşlarından alışmalıdır, çünki zəhmət uşaqlıqdan qazanmalı olduğumuz bir keyfiyyətdir. Uşaqlara kiçik yaşlarından əmək öyrətmək, onlara öhdəsindən gələ biləcəkləri tapşırıqlar vermək və gördükləri işə görə onları mükafatlandırmaq tərbiyənin vacib elementidir.

Uşaqlara çətin tapşırıqlar verməkdən qorxmayın. İlk dəfə öhdəsindən gəlməsə belə, ona dəstək olmaq və çətinlikləri başa düşməyə kömək etmək onun marağını və həvəsini artırır, çətinliklərdən qorxmamağı öyrənir. Uşaqlara zəhmətin barını göstərmək onun əməyə olan marağını artırır. Əgər valideynlər özləri zəhmətkeşdirlərsə övladları onların vərdişlərini və dəyərlərini mənimsəyəcəklər. Zəhmət uşağın gələcəyinə qoyulan mühüm investisiyadır. Uşaqlıqdan işləməyə alışmış insan həyatda daha uğurlu və xoşbəxt olur.

Zəhmətkeş olmaq təkcə şəxsi keyfiyyət deyil, həm də cəmiyyətin inkişafının əsasıdır. Xalq nə qədər zəhmətkeşdirsə, ölkə o qədər güclü olur. Zəhmətkeş insanlar yeni texnologiyalar yaradır, elmi və mədəniyyəti inkişaf etdirir, cəmiyyətin rifahı təmin olunur. Zəhmətkeşlərin əməyi sayəsində maddi və mənəvi sərvət yaranır. Zəhmət həm də mənəvi dəyərlərin möhkəmlənməsinə kömək edir. İşləməyə öyrəşmiş insanlar daha məsuliyyətli, dürüst və nizam-intizamlı olurlar, zəhmətkeş insan əxlaqsız, mənəviyyatsız olmur. Zəhmətkeş cəmiyyət ədalətin və bərabərliyin hökm sürdüyü cəmiyyətdir. Zəhmət cəmiyyətin davamlı inkişafının açarıdır. Alın tərini çörəyinə yavanlıq edən, həyatını əlinin qabarı ilə qazanan, zehnini xalqın, ölkənin inkişafı yolunda yoran bütün zəhmətkeşlərə salam olsun!

***Lalə Mehralı***

# Azərbaycan-Çin-İran münasibətlərində yeni mərhələ

## Milli Məclisin deputatı Sevinc Fətəliyevanın SİA-ya müsahibəsini təqdim edirik:

***- Azərbaycan-Çin münasibətləri bizə nə verir, regiona nələr vəd edir?***

- Prezident İlham Əliyevin Çinə səfəri, həqiqətən də tarixi hadisə oldu. Ona görə ki, bu, iki ölkə arasında əməkdaşlıqda yeni mərhələnin qədəm qoymasına səbəb oldu. Dünyada güc balansının dəyişməsi fonunda Çinin rolu getdikcə artır. Əsrlərlə Çin dünyanın aparıcı qüvvəsi kimi fəaliyyət göstərən bir dövlətdir. Lakin bu gün də həm iqtisadi məsələlərdə, həm də siyasi məsələlərdə Çinin çəkisi kifayət qədər çoxdur. Dünyada bir neçə böyük güc varsa, Çin onların arasındadır. Çinin Azərbaycana olan marağı həm Azərbaycanın nüfuzunun artmasına, həm də Çinin Cənubi Qafqaz regionunda məhz Azərbaycanla sıx əməkdaşlıq etməsi düşünürəm ki, hər iki dövlət üçün faydalıdır. Bu səfər tarixi səfər oldu. Ötən il Çinlə Azərbaycan arasında strateji əməkdaşlıq haqqında bəyannamə qəbul olunmuşdu. Artıq bu səfər çərçivəsində iki dövlət arasında hərtərəfli strateji əməkdaşlıq haqqında sənəd imzalandı. Əgər biz imzalanan sənədlərə nəzər salsaq, düşünürəm ki, elə bir sahə yoxdur ki, orada öz əksini tapmasın. Bu strateji bəyannamənin imzalanmasından sonda bir il ərzində Azərbaycan-Çin münasibətləri dinamik inkişaf edirdi. Bu, həm




qarşılıqlı səfərlər, həm iqtisadi, siyasi, partiyalararası münasibətlərdə özünü göstərirdi. Bu əməkdaşlıq, münasibətlər logistika, tranzit məsələlərinə aid idi. Bu gün həm iqtisadi-ticari əlaqələrin genişlənməsi var. Nəzərə alsaq ki, 2024-cü il üzrə Azərbaycanla Çin arasında ticari əlaqələrin o qədər geniş inkişaf etməsi buna gətirib çıxardı ki, Çin Azerbaycan üçün dördüncü böyük tərəfdaş kimi qeyd olunur. Burada həmçinin yaşıl enerji məsələləri də böyük rol oynayır.

Çünki gündəmdə olan əsas məsələ yaşıl enerji mənbələrinin inkişaf etdirilməsi, burada Çinin həm təcrübəsi, həm də kifayət qədər geniş imkanlara malik olması əhəmiyyətlidir. Bilirik ki, Çin dünyada külək enerjisi sahəsində aparıcı rola malikdir. Burada Çinin təcrübəsi bizim üçün çox vacibdir. Eyni zamanda bu istiqamətdə birgə fəaliyyət onu göstərir ki, siyasi məsələlərdə olduğu kimi bu məsələlərdə də bizim ortaq baxışlarımız, mövqelərimiz mövcuddur. Burada həm mədəni, həm təhsil sahələrini, televiziya, media sahəsində əməkdaşlığı qeyd etmək olar. Bütün sahələri əhatə edən əməkdaşlıq həm Azərbaycan, həm də Çin üçün önəmlidir.

***- Azərbaycan və Çin münasibətlərinin inkişafı ölkəmiz üçün nə qədər önəmlidir?***

- Güclü iqtisadiyyatı, dünyada söz sahibi olan dövlətlə bu cür əməkdaşlıq Azərbaycan üçün yeni imkanların açılmasıdır. Eyni zamanda bu, onu göstərir ki, bu gün Azərbaycanın mövqeyi dünyada qəbul olunur, dəstəklənir. Azərbaycanla əməkdaşlıq Çin üçün maraqlıdır. Torpaqlarımızın azad olunmasından sonra təmizlənmə məsələlərini qeyd etmək olar. Çin bu məsələlərdə iştirak etmək niyyətini ifadə etdi. Baxmayaraq ki, çox uzaq məsafədə yerləşirik, Azərbaycan gənc və böyük olmayan bir dövlətdir, Çinin Azərbaycana olan marağı həm ölkələr arasında qarşılıqlı marağın olmasını göstərir, həm də bu gün Çinin Cənubi Qafqazda öz marağını göstərir. Bu dövlətlər arasında



Azərbaycanı seçməsi onu göstərir ki, Azərbaycan, həqiqətən, istər Qərb, istər Şərq üçün, istər Asiya dövlətləri üçün etibarlı tərəfdaş kimi qəbul olunur. Düşünürəm ki, bu, ilk növbədə dünyaya bir mesajdır ki, bu gün Azərbaycanla Çin bu qədər yüksək səviyyəli tərəfdaşlıq, əməkdaşlıq niyyətindədirsə, maraqlıdırsa, deməli, Azərbaycan böyük imkanlara malik olan bir dövlətdir. Burada siyasi məsələləri də qeyd etmək lazımdır. Azərbaycan və Çin dövləti arasında beynəlxalq təşkilatlarla ortaq mövqedən, qarşılıqlı dəstək məsələləri öz əksini tapır. Bu gün həm strateji bəyannamə çərçivəsində, eyni zamanda hərtərəfli strateji tərəfdaşlıq haqqında sənəddə də öz əksini tapır.

Odur ki, dünyada gedən proseslərə Azərbaycan və Çin hörmət, bərabərhüquqlu əməkdaşlıq məsələlərini üstün tutur. Onu da qeyd etmək lazımdır ki, bu gün dünyada gedən proseslər onu göstərir ki, bəzi böyük dövlətlər əgər əməkdaşlıq edirlərsə, bu, hər hansı təzyiqlərlə özünü göstərə bilər. Həm hərbi, həm mədəni məsələlərdə, siyasi maraqların qəbul olunması məsələlərində özünü göstərir. Lakin Çin yeganə ölkədir ki, heç vaxt əməkdaşlığını hansısa təzyiqlər üzərində qurmur. Yalnız qarşılıqlı maraq və faydalı əməkdaşlıq əsasında qurur. Düşünürəm ki, bu yanaşma ona zəmin yaradır ki, Azərbaycan üçün Çinlə əməkdaşlıq həm mədəni əlaqələrin genişlənməsidir. Bu gün Azərbaycanda Çin dilinə böyük maraq var. Tələbə mübadiləsi, təhsil sahəsində əməkdaşlıq məsələlərində də çox böyük diqqət yetirilib, imzalanmış sənədlərdə öz əksini tapıb.

***- Azərbaycan və Çin arasında birgə universitetin yaradılması bizə nə verəcək?***

- Bir var siyasi iradə, dövlət başçılarının həm şəxsi münasibəti, həm dövlət və millətlərin maraq, mövqelərinə xidmət edən əməkdaşlıq, bir də var ki, xalqlararası əməkdaşlığın inkişafı məsələsi. Bunun da əsasında siyasət durmur. Bunu metroda əsasında təhsil, elm, mədəniyyət durur. Ortaq universitetin yaradılması, xalqlararası münasibətlərin daha da yaxın olması və

Azərbaycanda gedən proseslərin Çində düzgün qəbul olunması mediadan asılıdır. Çünki çox təəssüflər olsun ki, bəzi dövlətlərdə, dünya mediasında Azərbaycana qarşı qarayaxma məqalələrlə rastlaşırıq. Amma əməkdaşlığın, təhsil sahəsində, xalqlar arasında münasibətlərin daha da yaxın olması üçün bütün şəraitlər yaradılır.

***- Azərbaycanla Çin arasında vizasız gediş-gəliş haqqında saziş imzalanıb. Bu, Azərbaycan iqtisadiyyatı və turizmi üçün nə vəd edir?***

- Vizadan azad olunmaq çox əhəmiyyətli məsələdir. Azərbaycanın bu istiqamətdə kifayət qədər geniş təcrübəsi var. Lakin Çinlə bu cür razılaşmanın əldə olunması həm turizmin inkişafı üçün əhəmiyyətlidir. Azərbaycan tərəfi üçün Çinə gedib-gəlmək məsələsi həmişə maraq dairəsində idi. Azərbaycanın Çindən uzaq məsafədə yerləşməsi nəzərindən, eyni zamanda çox əhalisi olan dövlət üçün Azərbaycanı nə qədər maraqlandırmaq məsələsi çox önəmli və kifayət qədər çətin məsələdir. Burada həm vizadan azad olunmaq, xalqlar arasında münasibətlərin yeni mərhələsinin olması, Azərbaycan haqqında Çin mediasında, cəmiyyətində məlumatlar olsa, bu, qarşılıqlı turizm imkanlarının artmasına səbəb olacaq. Artıq müşahidə edirik ki, hər il Çindən gələn turistlərin sayı çoxalır. Qəbul olunmuş qərar, razılaşma ona imkan yaradacaq ki, turist axını daha da çoxalsın. Bu gün Azərbaycanda iqtisadiyyatın önəmli bir sahəsini məhz turizmin inkişafı təşkil edir. Nəzərə alsaq ki, həm regionda müəyyən gərginlik mövcuddur, bəzi gediş-gəliş məsələlərində məhdudiyyətlər var. Bizim üçün əlverişli fürsətdir ki, turizm potensialımızı artıraq.

Düşünürəm ki, əhalisi çox olan Çin tərəfindən axının artması Azərbaycan üçün iqtisadi nöqteyi-nəzərdən önəmli olacaq. Eyni zamanda Azərbaycan haqqında daha çox məlumatlı olan insanların sayı artacaq.

***- Çin "Bir kəmər, bir yol" təşəbbüsündə Azərbaycanın rolunu necə görür?***

- Əslində "Bir kəmər, bir yol" layihəsində Azərbaycan ilk ölkələrdən idi. Azərbaycan həmin layihəyə investisiya qoyaraq dəstək oldu. Bu da bir göstəricidir. Bu məsələlərə çox önəm veririk. Müəyyən iqtisadi maraqların olması, Azərbaycanın logistik imkanlara malik olması və bu imkanlardan istifadə etməsi imkanları populyarlaşdırmaq nöqteyi-nəzərdən önəmlidir. Eyni zamanda bu, onun göstəricisidir ki, Azərbaycan üçün bu cür layihələrin həyata keçirilməsi, özündə bir sıra ölkələri birləşdirən layihələr Azərbaycan üçün çox vacibdir. Əvvəllər hansısa logistik imkanlardan istifadə etmək üçün imkanlar var idi. Bu layihələrin sənəd üzərində imzalanması, sənədlərdə əksini tapması onu göstərir ki, Çin üçün bu tranzit yolların seçilməsi önəmli imkanlardan birini təşkil edəcək. Azərbaycanın Orta Asiya ilə sıx əlaqələrinin olması, həm coğrafi nöqteyi-nəzərdən, həm siyasi, mədəni əməkdaşlıq üçün önəmlidir. Çinin əməkdaşlıq etdiyi istiqamətlərdə Azərbaycanın da rolunun nə qədər önəmli olduğunu göstərir. Həm Orta Asiya dövlətləri, Çinin əməkdaşlıq etdiyi dövlətlərlə Azərbaycanın da yüksək səviyyəli münasibətləri var. Pakistan və Çin arasında strateji əməkdaşlıq mövcuddur. Azərbaycan və Pakistan arasında da münasibətlər kifayət qədər yüksək səviyyədədir. Bu onu göstərir ki, bizim müttəfiqlərimiz eynidir. Deməli, bizim baxışlarımız, mövqelərimiz üst-üstə düşür.

***- Azərbaycan-Çin-İran üçlüyünü strateji ittifaq kimi yaxın gələcəkdə görə bilərikmi?***

- Azərbaycanın strateji əməkdaşlıq etməsi üçün müəyyən formatların təşəbbüskarı kimi bilirik, bu istiqamətdə bizim təcrübəmiz var. Eyni zamanda Azərbaycan-Türkiyə-Gürcüstan formatını bilirik, kifayət qədər uğurlu fəaliyyət göstərir. Azərbaycan-Türkiyə-İran formatı da mövcuddur. Əsas məsələ ondan ibarətdir ki, biz birləşdirən ölkələrin baxışları və mövqeləri üst-üstə düşsün. Təəssüflər olsun ki, istər regionda olan, istər regiondan xaricdə olan dövlətlərin mövqeləri regional məsələləri, maraqları əks etdirmir.

Əsas məsələ odur ki, biz həm siyasi nöqteyi-nəzərdən eyni mövqeyə malik olsaq, dünyada gedən proseslərə düzgün və ortaq mövqelər irəli sürsək, bu cür formatlar da hər üç tərəf üçün faydalı olacaq. İran-Azərbaycan münasibətlərindən tranzit məsələlər ən əsas istiqamətlərdən birini təşkil edir. Düşünürəm ki, burada Azərbaycan-İran vasitəsilə tranzit yolların mövcudluğu Çin üçün faydalı və maraq dairəsində olan məsələdir.

***Söylü Ağazadə***

# Dağlar qoynundakı müasir şəhər və yenidən qurulan Laçın

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## *SƏFƏR TƏƏSSÜRATLARI VƏ FOTOREPORTAJ*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb*



***Aprelin 29-da ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələri, tanınmış ictimai xadimlər, media orqanlarının rəhbərləri növbəti birgə səfər çərçivəsində Laçına səfər ediblər. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə həyata keçirilmiş səfərdə ümumilikdə 80 nəfər iştirak edirdi. Səfər çərçivəsində Zabuxçay su anbarı, "Lacinema" kino mərkəzi, "Hoçazfilm" kinopavilyonu, "Zerti Aqro-Sənaye Parkı"nda fəaliyyət göstərən müəssisələr, həmçinin Laçın şəhərində və bəzi kəndlərdə aparılan bərpa və yenidənqurma işləri ilə tanış olduq.***











Əvvəlcə, Laçın rayonunun Zabux kəndində tikilən Zabuxçay su anbarı ilə tanış olduq. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Zabuxçay su anbarının qarşısında səfər iştirakçılarını salamladı: "Erməni işğalçıları tərəfindən digər rayonlar kimi, Laçın da vəhşiliyə məruz qalıb. Amma qəhrəman ordumuzun, Ali Baş Komandanımızın, Azərbaycan xalqının şanlı, heç vaxt unudulmayacaq böyük qələbəsi nəticəsində 2020-ci ildə Laçın, 2022-ci il avqustun 26-da isə Sus və Zabux kəndləri erməni tapdağından birdəfəlik azad olundu. Bu gün böyük məmnuniyyət hissi ilə möhtərəm Prezidentimizin adından Zabuxçay su anbarının önündə sizi salamlayıram, hər birinizə "xoş gəlmisiniz" deyirəm".

Su Ehtiyatları Agentliyi sədrinin müşaviri Etibar Məmmədov Zabuxçay su anbarı ilə bağlı görülən işlər, həmçinin yeni tikiləcək su anbarları haqda ətraflı məlumat verdi: "Zabuxçay su anbarının tutumu 26 milyon kubmetrdir, Laçının bir çox kəndləri, o cümlədən Qubadlı və Zəngilan rayonlarında əkin dövriyyəsinə buraxılan 12,1 min hektar torpağın suvarılması nəzərdə tutulur. Ehtiyac olarsa, Cəbrayıl rayonuna da suvarma üçün su verilməsi mümkündür.

Eyni zamanda cənab prezidentin tapşırığı ilə yaxın zamanlarda 91 milyon kubmetr su tutumu olacaq digər su anbarının texniki-iqtisadi əsaslandırılması hazırlanır, layihə ərəfəsindədir. Həmin anbar da bu çay üzərində inşa olunacaq. Bu su anbarı Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl və Ağdam üçün həm içməli, həm də suvarma su mənbəyi kimi nəzərdə tutulur. Eyni zamanda gələcəkdə bu anbardan Bakı şəhərinə su nəql edilməsi də layihənin bir hissəsidir".

Daha sonra Laçın şəhəri və ona yaxın kəndlərdə aparılan işlərlə tanış olduq. PA-nın şöbə müdiri Ədalət Vəliyev Laçın şəhərində iştirakçılar qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı şəkildə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verdi. Ədalət Vəliyev bildirdi ki, Laçının timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan bərpa-quruculuq işlərinin səviyyəsi haqqında təsəvvürlər formalaşa bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı müasir Azərbaycan tarixinin ən qürurlu səhifələrindən olduğunu bildirən Administrasiya rəsmisi mövcud istiqamətdə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş müvafiq dövlət proqramlarından da söhbət açdı.

Səfər çərçivəsində Laçının iqtisadi, habelə turizm potensialı ilə də tanış olduq. Bildirildi ki, Laçının turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq, bununla yanaşı rayonda kənd turizmi də inkişaf etdiriləcək. Qeyd olundu ki, yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Daha sonra "Lacinema" şəhər kinoteatrında təşkil olunan tədbiqdə Laçında görülən bütün işlər haqda ümumi təqdimat edildi, videoçarx və slaydlar vasitəsilə ətraflı məlumatlar verildi. Azərbaycan Respublikası Prezidentinin Laçın rayonu üzrə xüsusi nümayəndəsi Məsim Məmmədov qeyd etdi ki, Laçın rayonu azad olunduqdan sonra burada aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri artıq öz bəhrəsini verməkdədir: "İndiyədək rayonda 1000-dən çox yaşayış evi tikilib və bərpa olunub. Artıq 847 ailə doğma torpaqlarına qayıdaraq yeni evlərində məskunlaşıb. Təkcə Laçın şəhərinin özündə 626 fərdi ev və çoxmənzilli binalarda yerləşən 138 mənzil istifadəyə verilib. Eyni zamanda, 87 qeyri-yaşayış sahəsi də istifadəyə hazır vəziyyətə gətirilib. Tikinti prosesi isə davam etməkdədir- hazırda 89 fərdi ev, 28 çoxmənzilli bina və 26 qeyri-yaşayış obyektinin inşası və bərpası aparılır. Gələcək planlara əsasən, daha 237 fərdi ev və 29 çoxmənzilli binanın (ümumilikdə 436 mənzil) tikintisi nəzərdə tutulur.

Prezidentin xüsusi nümayəndəsi bildirdi ki, Laçının kəndləri də diqqətdən kənarda qalmayıb: "Sus kəndində 59 fərdi ev və 4 qeyri-yaşayış binası inşa olunub. Zabux kəndində isə 223 fərdi evlə yanaşı, 4 qeyri-yaşayış binası da istifadəyə verilib. Xüsusi olaraq vurğulanmalıdır ki, bu yaşayış məntəqələrində ekoloji davamlılıq prinsipləri də tətbiq olunub - fərdi evlərin və qeyri-yaşayış binalarının damlarında günəş panelləri quraşdırılıb. Eyni yanaşma Laçın şəhərində də müşahidə olunur. Burada mərkəzləşdirilmiş istilik sistemi ilə yanaşı, bir sıra fərdi evlərdə günəş enerjisi sistemləri mövcuddur".

Məsim Məmmədov eyni zamanda Laçın-Kəlbəcər avtomobil yolu boyunca tikilən infrastruktur layihələrindən də söz açdı: "Bu mühüm yol xəttində ümumi uzunluğu 2793 metr olan 14 körpü və 5208 metr uzunluğa malik 11 tunel artıq inşa edilib. Bu isə regionun nəqliyyat əlaqələrinin bərpası və təhlükəsizliyin təmin olunması baxımından böyük əhəmiyyət daşıyır".

Tədbirdə Laçın beynəlxalq hava limanının tikintisi prosesi də videorolik formasında nümayiş etdirildi. Qeyd olundu ki, bu aeroport həddən artıq mürəkkəb relfeydə tikilir və təkcə 60 metr enində 3 km-lik uçuş enmə zolağının tikintisi üçün də çox nəhəng miqyasda işlər görülüb. Aeroport hər saatda 200 sərnişinə xidmət göstərə biləcək imkanlara malikdir. Mövcud yolla şəhərdən 62 km aralı yerləşən aeroporta yeni yol çəkilir və bu yol şəhərlə aeroport arasında məsafəni 35-ə endirəcək. Laçını Qarabağın digər rayonları ilə birləşdirən yolla sayəsində bu hava limanından Qarabağın bütün əhalisi rahatlıqla istifadə edə biləcək.

Daha sonra iştirakçılar şəhərin Heydər Əliyev küçəsində aparılan və görülücək işlərlə tanış oldular. Şəhərin sənaye müəssisələri haqda da məlumat verilib və səfər iştirakçıları onlardan birinə- "Zerti Aqro-Sənaye Parkı"nda fəaliyyət göstərən mebel fabrikinə baş çəkiblər. Qeyd olunub ki rayonda xeyli sayda istehsal və xidmət müəssisəsi yaradılıb və bu işlər davam edir.

"Hoçazfilm" kinopavilyonunda iştirakçılar pavilyonun imkanları ilə tanış olublar. Bu kinostudiyada maraqlı filmlərin çəkilişi üçün lazımi imkanlar yaradılıb. Ümumiyyətlə, Laçın rayonu bütövlükdə nəhəng tikinti meydanını xatırladır. Hər tərəfdə yollar salınır, su, kanalizasiya, elektrik, qaz xətləri çəkilir, bağlar salınır. Şəhərdəki və kəndlərdəki bütün salamat qalmış evlər əsaslı təmir olunub, əksəriyyətinin dam örtüyündə Günəş panelləri qurulub. Yeni məktəblər, səhiyyə müssəsisələri, digər sosial və mədəni obyektlər tikilib və tikilməkdə davam edir.

Laçın şəhərinin mənzərəsi valehedici idi və rayonun gözəl təbiəti bu rayonun böyük potensialı olduğunu bir daha ortaya qoyur. Rayonda aparılan genişmiqyaslı quruculuq işləri isə Laçının parlaq gələcəyindən xəbər verir.





















***Elçin Bayramlı***
***Bakı-Laçın-Bakı***

# “İran-Azərbaycan əlaqələrində yeni körpü yaranmaqdadır”

“Beynəlxalq münasibətlərdə geosiyasət, yəni mövcud olduğun coğrafiyada yerləşən qonşu dövlətlərlə münasibətlərin keyfiyyəti olduqca əhəmiyyətlidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, nəticə etibarilə coğrafi mövqe hər bir dövlətin xarici siyasətini təyin edən əsas faktorlardan biri kimi çıxış edir: ”Coğrafi mövqeyin reallıqlarını isə milli maraqlar baxımından strateji üstünlüyə çevirmək bacarığı milli diplomatiyanın əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan yerləşdiyi coğrafiyada bütün qonşularla yaxşı əlaqələr yaratmağa çalışır. Təsadüfi deyil ki, tarixboyu müxtəlif mərhələlərdən keçmiş





Rusiya-Azərbaycan münasibətləri bu gün məhz bu kontekstdə müttəfiqlik, birgə fəaliyyət haqqında bəyannamənin tələblərinə uyğun olaraq yüksək səviyyəyə qaldırılıb.

Qardaş Türkiyə ilə münasibətlər strateji müttəfiqlik münasibətləridir. Gürcüstanla Azərbaycan münasibətləri strateji tərəfdaşlığın bütün istiqamətlərini əhatə etməklə qarşılıqlı hörmət, etimada söykənir. Bu kontekstdə İran-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi, daha yeni səviyyəyə qalxması üçün addımların atılması Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir. Ona görə də, İran prezidentinin Azərbaycana səfəri mühüm əhəmiyyət kəsb edir.

İran-Azərbaycan münasibətləri özünəməxsus spesifikası olan münasibətlərdir. Çünki görüş zamanı hər iki qonşu ölkənin prezidentlərinin ifadə etdiyi kimi bu münasibətlər ortaq tarixi keçmişə, ortaq mədəniyyətə, ortaq dil mədəniyyətinə söykənməklə bərabər bu gün də canlıdır. Bu gün də həm də qohumluq əlaqələrinə söykənən münasibətdir. Ona görə də, mənə elə gəlir ki, İran prezidenti Pezeşkianın Azərbaycanın Prezidentinə xitabında bu reallıqların hamısı öz əksini tapmışdır. Çünki M.Pezeşkian Azərbaycan Prezidentinə ”Əziz qardaşım” deyə xitab etdi. Azərbaycan Prezidenti də İran Prezidentinə ”Əziz qardaşım” deyə xitab etdi. Bu, sadəcə gəlişi gözəl sözlər, müraciətlər deyil, mövcud reallığın özüdür. Düşünürəm ki, hazırki mərhələdə məqsəd məhz İran-Azərbaycan münasibətlərini daha yüksək səviyyəyə qaldırmaqla sözün mənəvi haqqını real siyasi proseslərdə real məzmuna qovuşdurmaqdır. Ona görə də, Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycana münasibətlərin əsasları qoyularkən bu fəlsəfəyə söykənmişdi. Bu fəlsəfə bu gün də Azərbaycanın xarici siyasətində öz məntiqi davamına söykənməkdədir”.

”İran-Azərbaycan münasibətlərinin olmazsa-olmazı var. Bunlar ilk növbədə ərazi bütövlüyünün tanınması məsələsidir. Qarşılıqlı şəkildə münasibətlərin inkişafına üçüncü ölkələrin müdaxiləsinə yolverməzliyidir. Daxili işlərə qarışmamaq siyasətidir ki, bu da daim Azərbaycanın xarici siyasətində öz əksini tapıb. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsindən sonra 2020-ci ildə Zəngilana səfərə gedərkən Xudafərin körpüsünə tərəf baxaraq körpünü dostluq körpüsü adlandırmışdır. Bu gün də Azərbaycan Prezidentinin siyasəti sayəsində və İranla münasibətlər kontekstində İran-Azərbaycan əlaqələrində yeni körpü yaranmaqdadır. Bu həm simvolik mənada, həm də real Araz dəhlizi üzərindən Azərbaycanı Naxçıvana birləşdirəcək körpüdür.

Şübhəsiz ki, İran-Azərbaycan münasibətləri həm də mehriban qonşuluq siyasətinə əsaslanmaqla region dövlətlərinin qarşılıqlı şəkildə inteqrasiyasına və yüksək səviyyəli əməkdaşlığına söykənir. Bu mənada Azərbaycan və Türkiyənin irəli sürdüyü ”3+3” formatı onun perspektivləri də İran-Azərbaycan münasibətlərinin cazibədar tərəflərindən biridir. Eyni zamanda daha böyük mənada Şimal, Cənub, Şərq, Qərb layihələri üzrə İran və Azərbaycanın çox böyük əməkdaşlıq perspektivləri var. Düşünürük ki, İran Prezidentinin Azərbaycana səfərindən sonra bütün bu istiqamətlərdə, mənəvi sferalarda da münasibətlərin dərinləşməsi üçün yeni şərtlər formalaşmış oldu” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “Vətəndaşları saxta vədlərlə aldatma halları hər keçən gün artmaqdadır”

## *QURUM RƏSMİSİ AÇIQLADI*



”İnternetdə, daha konkret olaraq isə sosial mediada vətəndaşları saxta vədlərlə aldatma halları hər keçən gün artmaqdadır. Təhlükəli linklərin geniş şəkildə istifadə edilməsi, qeyri-qanuni məzmunların (content) paylaşılması durmadan çoxalmaqdadır”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) Tədqiqat və İnkişaf şöbəsinin müdiri, hüquq üzrə fəlsəfə doktoru Təbriz Raufoğlu deyib.

Onun sözlərinə görə, belə hallar, yeni vətəndaşları saxta vədlərlə və etibarlarından sui-istifadə edərək aldatmaq, daha konkret onların əmlakını mənimsəmək Azərbaycan Respublikası Cinayət qanunvericiliyi ilə konkret məsuliyyətə səbəb olmaqdadır. Belə ki, Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə (Dələduzluq) tərkibinin yarandığı açıqdır. Əslində, dələduzluq sadəcə məkanını dəyişdirmişdir. Onsuzd a gündəlik həyatda dələduzluq faktları kifayət qədərdir. Sadəcə, əməlin törədilməsinin kibərməkana keçidi onun arealını genişləndirməkdədir. Ona görə də kibərməkanda törədilən belə əməllərə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kibercinayətlər ilə bağlı fəslindəki tərkiblərin də (Maddə 271, 272, 273) işin konkret hallarının nəzərə alınması ilə tətbiq edilməsi mümkündür. Ancaq internetin gətirdiyi fenomenal dəyişikliklər fonunda belə cinayətkar əməllərin aşkar edilməsi və cəzalandırılmasına münasibətdə daha çətin situasiya yaranmışdır. Ona görə ki, bu tipli əməllər adətən ölkə hüdudlarından kənardan (Daxildən törədilən faktların üstünün hüquq-mühafizə orqanları tərəfindən açılması mütəmadi olaraq təmin edilir) müdaxilələr vasitəsilə həyata keçirilməkdədir.

Baxmayaraq ki, kibercinayətkarlıqla bağlı müxtəlif regional və beynəlxalq əhəmiyyətli müqavilələr mövcuddur, ancaq faktiki olaraq belə əməllərə hüquqi qiymətin verilməsinin hələ də effektiv olduğunu söyləmək çətindir. Odur ki, sosial mediada kiberdələduzların bu formada vətəndaşları aldatmasının önünə keçmək üçün hazırda atıla biləcək addım bu sahədə vətəndaşların maarifləndirilməsi, başqa bir sözlə informasiya texnologiyaları sahəsində ilkin bilik və bacarıqların artırılmasını təmin etməkdir. Nəzərə almaq lazımdır ki, internetdə tanımadığınız şəxslər tərəfindən və ya qeyri-müəyyən mənbələrdən paylaşılan məlumatlara etibar etməyin (linklərə daxil olmaq) ciddi riskləri var. Bu cür halların qurbanına çevrilməmək üçün və daha təhlükəsiz internet üçün aşağıdakı addımların atılması mümkündür: Sosial media hesablarında tanımadığınız şəxslər tərəfindən göndərilən keçidlərə (”link”lərə) daxil olmağın riskləri aşağıdakılardır:

Fişinq hücumları (”Phishing”): Bu keçidlər sizi fərdi məlumatlarınızı (şifrə, bank kartı məlumatları, e-poçt və s.) ələ keçirmək üçün yaradılmış saxta vebsaytlara yönləndirə və sizi kiberdələduzların qurbanına çevirə bilər.

Zərərli proqramların yüklənməsi: Keçidlər vasitəsilə cihazınıza virus, ”malware”, ”spyware” və ya digər zərərli proqramlar yüklənə bilər ki, bunun da nəticəsində, cihazınızın fəaliyyəti pozula, fərdi məlumatlarınız ələ keçirilə və ya maddi zərərlərə məruz qala bilərsiniz.

Hesabların ələ keçirilməsi: Keçiddə yer alan mexanizm vasitəsilə sosial media hesabınızın məlumatları oğurlana və hesabınız kiberdələduzların əlinə keçə və başqa insanları aldatmaq üçün istifadə edilə bilər.

Maddi zərər: Bəzi keçidlər sizi saxta alış-veriş səhifələrinə və ya ödəniş tələb edən xidmətlərə yönləndirə bilər. Nəticədə, maddi zərər çəkə bilərsiniz.

Fərdi məlumatların qanunsuz ələ keçirilməsi: Keçidlər vasitəsilə sizin cihazınızdakı fərdi məlumatlara, fotolara və ya sənədlərə icazəsiz giriş əldə edilə bilər.

Kibercinayətkarların və ya kiberdələduzların şəbəkələrinə cəlb olunma: Keçidlər sizi zərərli şəbəkələrə və ya qanunsuz fəaliyyətlərə cəlb etmək məqsədi daşıya bilər.

Özünüzü qorumaq üçün tövsiyələr:

Naməlum keçidlərə daxil olmayın: Tanımadığınız və ya etibar etmədiyiniz mənbələrdən gələn keçidlərdən uzaq durun.

URL-ləri diqqətlə yoxlayın: Keçidin həqiqi və təhlükəsiz olduğundan əmin olmaq üçün URL-ni diqqətlə yoxlayın.

Antivirus proqramından istifadə edin: Zərərli proqramlardan qorunmaq üçün lisenziyalı antivirus proqramı istifadə edin.

Hesabınızın təhlükəsizliyini gücləndirin: Şifrələrinizi müntəzəm olaraq dəyişdirin və mümkün olduğu halda iki faktorlu autentifikasiyanı (2FA) aktiv edin.

Təhlükəsizlik parametrlərini yoxlayın: Sosial media hesablarınızdakı məxfilik və təhlükəsizlik parametrlərini nəzərdən keçirin və uyğun şəkildə tənzimləyin”.

***Ziya Hikmətoğlu***




# Trendyol 50 manatdan yuxarı sifarişlərdə çatdırılmanı pulsuz etdi

Dünyanın əsas e-ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması Trendyol 50 AZN və ondan yuxarı məbləğdə olan sifarişlər üçün Azərbaycana çatdırılma xərclərini ləğv edib. Onlayn alış-veriş həvəskarları qeyd olunan və ondan yuxarı məbləğdə məhsul sifariş etdikdə pulsuz çatdırılmadan, o

trendyol

cümlədən evə pulsuz çatdırılmadan yararlana bilirlər. Bundan əlavə, "Trendyol"dan ilk dəfə sifariş verən bütün istifadəçilər sifariş məbləğindən və məhsul sayından asılı olmayaraq birbaşa ünvana çatdırılma üçün ödəniş etmir.

50 AZN-dən aşağı məbləğdə olan sifarişlər üçün də yenilənmiş çatdırılma tarifləri tətbiq olunur: ”Gəl al”nöqtəsi üçün 3.99 AZN, evə çatdırılma üçün isə 6.99 AZN sabit ödəniş edilir”. ”Trendyol” öz istifadəçilərinə tekstilməhsullarından elektronikaya, uşaq oyuncaqlarından ev dekorasiyasına qədər 1500-dən artıq kateqoriyada məhsul təqdim edir. Hazırda ”Trendyol”un Azərbaycanda 2 milyondan çox müştərisi var. Son iki ildə ”Trendyol” tətbiqi Azərbaycanda ən çox yüklənən mobil tətbiq olub.

# May ayında niyə toy şənliyi keçirmək olmaz?

***Hər xalqın özünəməxsus adət-ənənələri var; bu adət-ənənələrin bəzilərinin etimologiyası bəllidir, bəzilərinin isə yaranma səbəbi unudulub. Təbiətdə ilin bütün fəsilləri, bütün ayları gözəldir. Qışın öz cazibəsi var, yazın öz ləzzəti. Soyuq qış fəslindən çıxmış insanlar yazı sonsuz sevinclə qarşılayırlar. Yaz gələr-gəlməz toy-düyünlər başlayar, aprel ayının sonuna kimi bu büsat davam edər. Elə ki, may ayı gəldi, hamı toy etməyə qorxar. Təəccüblüdür. Necə olur ki, bu ayda toy-düyün sədası eşidilmir. Lakin may ayında doğulanlar, ad günü keçirənlər, ailə quranlar da az deyil.***

Kimi "may ayının" "ağır ay" olduğunu söyləyir, kimi "çiçək ayı" olduğunu, kimi də bunun heç bir məntiqə əsaslanmadığını deyir. Bəzi ağsaqqallarımız bu ayı ruzi-bərəkətin əsasının qoyulması ilə əlaqələndirib onu körpə uşağa bənzədirlər. Söyləyirlər ki, körpə uşaq heç bir təməl qoya bilməz. Ona görə də, bu ayda ailə kimi çox vacib bir ictimai qurumun da təməli qoyulmamalıdır. Bu səbəbdən də bu ayda qurulan ailələr ya xoşbəxt olmur, ya da həyatları çətinliklər içərisində keçir.

## Stereotip, tibbi faktorlar, yoxsa dini inanc?

Azərbaycanda may ayında toy keçirmək dəb deyil. "May ayı gəldi, toylardan canımız qurtardı". "May boş aydır". Səbəb nədir? Bəlkə, səbəb yasəmənin çiçəkləməsi, yağışların yağması, yoxsa mayın bərəkətsiz ay olmasıdır?

Hesab edirik ki, may ayı müsəlman dünyası üçün ən gözəl, uğurlu aylardan biridir. May ayı ilə bağlı insanlar arasında maarifləndirmə işləri aparılmalıdır. İnsanlarda psixoloji gərginlik yaratmaq lazım deyil ki, mayda toy etmək olmaz və s. Lazımsız, mənasız, əsassız fikirlərdən uzaq olmaq lazımdır. Bu ayda toy etməməyin heç bir elmi əsası yoxdur. Mart, aprel və may aylarında təbiət oyanır. Sadəcə olaraq, bəzi düzgün olmayan inanclar var. Məsələn, "may ayı çiçək tökən aydır", "bu ay yağışlı olur" və s. Bütün bünlar insanların mənəviyyatına, psixikasına çökərək onların may ayından ehtiyat etməsinə gətirib çıxarıb.

## Səbəbkar ruslar və ermənilərdir

Amma yaşlı insanlar bildirir ki, Azərbaycanda may ayında toy edilməməsi ənənəsi rusların Azərbaycana gəlişindən sonra başlanıb. Çünki ruslar, eləcə də ermənilər arasında da bu ayın uğursuzluğu ilə bağlı mif var. Halbuki bu miflə gerçəklik bir-birinin əksidir. Təkcə Moskvada aparılan araşdırma zamanı aydın olub ki, ruslar may ayında digər aylarla müqayisədə daha çox ailə qurur. Erməni faktoruna gəlincə, düşmənlərimiz bu ayda özlərinin qondarma soyqırım hadisələrinə 40 gün yas saxlayır ki, bu da aprelin 24-dən başlayaraq mayın 24-dək davam edir. Onlar hələ iyunun əvvəlindən 1-2 gün də daxil etməklə bu müddəti matəm kimi qeyd edirlər. Ekspertlər hesab edir ki, may ayının bu cür "qaralanmasında" Bakıda yaşayan ermənilərin də rolu var. Onların uzun illər Bakıda yaşaması nəticəsində paytaxt əhli arasında may ayı matəm ayı ünvanını qazanıb.

## "Şər deməsən xeyir gəlməz"



Əvvəllər, bu ayda tarla-bostan və bağlarda çalışanların işi çox olurdu. Toy barədə düşünmək imkanı yox idi. Digər tərəfdən toy süfrə ilə bağlı olan bir mərasimdir. Hər kəs istəyir ki, toy süfrəsi müxtəlif nemətlərlə zəngin olsun. Lakin may elə bir aydır ki, keçən ilin ehtiyatları artıq tükənib, yeni meyvə və tərəvəzlər isə hələ yetişməyib. Əlbəttə, söhbət ildə bir neçə dəfə torpaqdan məhsul götürən isti ölkələrdən getmir. Hazırda bizim xalqımız üçün də, ərzaqla bağlı problem yoxdur. Müxtəlif ölkələrdən ilboyu ölkəmizə hər cür məhsullar gətirilir. Bu ayla bağlı yaranmış inanclardan birinə görə mayda toyların olmamasının səbəbi yasəmənin çiçək




açmasıdır. Yasəmən qədimdən bəri uğursuzluq simvolu sayılır. Bunu isə gülün adı ilə bağlayırlar. Necə deyərlər, yasəmən çiçəyinin mənası "ya sən, ya mən" deməkdir. Yəni həmin vaxtda toy eləsən ya sən qalarsan, ya mən. Ona görə də bu dövrdə toy etmək düzgün deyil, yasəmən uğursuzluq gətirir. Bu fikrə qatılan insanlar may ayında xeyirbərəkət olmadığını, tez-tez yağışlar yağdığına görə təbiətin ağladığını, uğursuz gül hesab edilən yasəmənin bu ayda çiçək açdığını əsas gətirərək bu ayı ağır ay hesab edir. Heç bir tarixi və mistik əsasını bilməsək də, ölkəmizdə may ayında toy keçirilməməsi adət halını almışdır. Bundan başqa, may ayında xeyir-bərəkət olmadığı da sadalanan səbəblər sırasındadır. Fikir vermişsinizsə, xüsusən kənd yerlərində insanlar toyu payız ayına, məhsulun bol vaxtına salırlar. Bu da toyun ucuz başa gəlməsinə, yeni qurulan ailənin bərəkətli olmasına dəlalət edir. May ayında çoxlu yağışların yağmasını insanlar sanki, təbiətin ağlayan dövrü kimi xarakterizə etmişlər. Təbiət ağlayarkən insanlar şadlıq etmək istəmirlər. Lakin toyların olmamasının bir səbəbi də odur ki, may ayında maygülü adlı bitki çiçək açır və may ayında da solur. Bu fikrə əsaslanan gənclər keçmişdən bəri may ayında evlənməkdən imtina edirlər. Bu fikrə qatılanlar, maygülü çiçəyi kimi sevgilərinin də tez solmasını istəmirlər. Lakin bu çox yanlış mövqedir. Əgər "maygülü" mayda açıb mayda solursa bunun ayla bir bağlılığı yoxdur, bunu insanın bir gün dünyadan köçməsi ilə də əlaqələndirmək olmaz. Görülən hər xeyir işin içində bir şər, hər şərin içində isə xeyirin olması faktdır. Keçmişdən bu günümüzə qədər gətirilən bu qəribə adətə kortəbii şəkildə hər kəs əməl edir. Ancaq bunun hansı əsaslara söykəndiyini araşdırıb, bu "ağır ay" sindromunu qıran yoxdur. Bu tip inancların səbəbi sadəcə olaraq özünə inamsızlıqdır. "Şər deməsən xeyir gəlməz" kimi atalar sözü yuxarıda qeyd etdiyimiz fikirlərlə vəhdət təşkil edir. Şər desən, şər gələr, xeyir desən xeyir.

## May aylarına "qan qaynayan" ay da deyirlər

Daha bir maraqlı səbəb isə may ayında dünya evinə girənlərin 9 ay sonra, yəni soyuq aylarda dünyaya gəlmə ehtimalıdır. Qədim zamanlarda qışda doğulan uşaqların sağ qalma ehtimalı zəif görünürdü. Buna görə də insanlar nəsillərinin davamı baxımdan bu riskə getməzdilər. Söhbət gələcək körpələrdən düşmüşkən, internetdə bir axtarış etdik. Məlum oldu ki, yaz fəslində və konkret olaraq may ayında insanların orqanimində həm mənfi, həm də müsbət yöndə dəyişikliklər olur. Müxtəlif orqanizmlərin təbiətdə baş verən proseslərə də reaksiyası dəyişkən olur. Bir qisim insan üçün fəsil dəyişkənliyi yüksək əhval-ruhiyyə gətirə bilər, digər bir qisim üçünsə tam əksinə. Bundan əlavə, el arasında aprel və may aylarına "qan qaynayan" ay da deyirlər və bu müddətdə insanların əhval-ruhiyyəsi eynilə təbiətdə olduğu kimi oyanma ilə müşayiət edilir. May ayı ginekologiyada cinsi aktivliyin artdığı ay kimi xüsusilə qeyd olunur. Ginekoloqlar iddia edir ki, yeni ailə quran xanımlarda hamiləlik dövrü adətən bu aylardan etibarən başlayır.

Həkimlər may ayının insan orqanizminə vurduğu ziyanlardan da danışır. Onların fikrincə, ağır xəstəliklərdən əziyyət çəkənlər daha çox bu mövsümdə dünyasını dəyişir. Xəstəliklər də bu müddətdə daha da intensivləşir. Ümumənsə, tibdə fəsillər arasında orqanizm üçün ən təhlükəlisi yay sayılır. SİA mövzu ilə əlaqədar sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyevin fikirlərini öyrənib.

Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev: "Bəşəriyyətin sosial hadisələrindən biri olan toy, müxtəlif xalqların fərqli adət və ənənələrini özündə birləşdirən, xüsusilə mədəniyyət və inanclara bağlı bir mərasimdir. Toylar hər bir millətin dəyərlərini, adət-ənənələrini və mənəvi keyfiyyətlərini əks etdirən, uzun illər boyu formalaşmış sosial tədbirlərdir. Azərbaycan xalqının da özünəməxsus toy adətləri vardır. Lakin, bu adətlər arasında bəzi etik olmayan və hətta xurafi inanclara əsaslanan əməllər mövcuddur.

Azərbaycanda bəzi toy adətləri zamanla formalaşmış və ənənə halına gəlmişdir. Lakin zamanla dəyişən dövr və cəmiyyətin inkişafı ilə bəzi adətlərin müasirləşməsi və ya tədricən ləğv edilməsi zərurəti meydana çıxıb. Toy mərasimlərinin forması və tərkibi, çox zaman o xalqların inanclarına, mədəniyyətinə və həyat tərzinə bağlı olur. Lakin zaman keçdikcə bəzi adətlərin artıq etik olmayan və cəmiyyətin dəyərlərinə uyğun gəlmədiyi göründü.



Azərbaycan toylarında bir zamanlar geniş yayılmış bir ənənə gəlinin bütün paltarlarının kamera qarşısında təqdim edilməsi idi. Bu mərasim, xüsusilə nişan mərasimində müşahidə olunurdu. Gəlinin paltarlarının ardıcıl şəkildə kamera qarşısında nümayiş etdirilməsi və bu görüntülərin ailə ilə video kasetdən izlənilməsi etik olmayan bir adət idi. İndiki dövrdə belə əməllərin tədricən aradan qaldırılması, gələcək nəsillərə daha sağlam və etik dəyərlərin ötürülməsi vacibdir.

Başqa bir ənənə isə gəlinin oğlan sinif yoldaşlarının onu dövrəyə alıb rəqs etməsidir. Bu tip adətlər bəzən gənc nəsillərin öz mədəniyyətindən uzaqlaşmasına və başqa mədəniyyətlərin təsiri altına girməsinə səbəb ola bilir. Azərbaycan xalqının milli kimliyini qorumaq və gələcək nəsillərə doğru dəyərlər aşılamaq baxımından bu cür davranışların ləğv edilməsi önəmlidir. Azərbaycanda başqa bir xurafi inanc da may ayında toy etmək olmaz inancıdır. Bu ənənə köklü bir yanlış inanclara əsaslanır və heç bir real əsasa dayanmır. Cəmiyyətin böyük əksəriyyəti müsəlman olduğu üçün belə bir qadağa olmasının dini əsası olmadığı aydındır. Nə Qurani-Kərimdə, nə də Peyğəmbərin hədislərində may ayında toy etmək barədə hər hansı bir qadağa mövcud deyil. Əksinə, may ayı təbiətin canlandığı, günəşin istiləşdiyi və hava şəraitinin toy etmək üçün ən əlverişli dövr olduğu aylardan biridir. Bu yanlış inancı özümüzdən ataraq, cəmiyyətə doğru məlumatlar vermək və adətləri təkrarlamaq əvəzinə daha sağlam düşüncələrə sahib olmaq lazımdır.

Bəzi adətlərin xurafi inanc və yanlış düşüncələrdən qaynaqlandığını qəbul etməli və onları tədricən ləğv etməliyik. Hər bir toy sadəcə bir əyləncə və mərasim deyil, həm də milli kimliyi, ailə dəyərlərini və sosial əxlaqı əks etdirən bir hadisə olmalıdır. Gələcək nəsillər üçün doğru dəyərləri aşılamaq, həm də adətləri müasir cəmiyyətin ehtiyaclarına uyğun şəkildə dəyişdirmək lazımdır.

Nəticə etibarilə, toy adətləri sadəcə bir mədəniyyətin nümayişi deyil, həm də insanın etik və mənəvi baxışlarını göstərən bir hadisə olmalıdır. Bizim vəzifəmiz, milli kimliyimizi qorumaq və ənənələrimizi, gələcək nəsillər üçün daha sağlam və etik bir şəkildə formalaşdırmaqdır. Bu yolla cəmiyyətimizin inkişafına və insanlarımızın sosial və mənəvi rifahına töhfə vermiş olarıq".

***Söylü Ağazadə***



# Bəşəriyyətin bəlası - terrorizm

## 30 apreldə törədilən terror aktından 16 il ötür

İnsanların həlak olması, onların sağlamlığına zərərin və əmlaka əhəmiyyətli ziyanın vurulması əlbəttə ki, terror olaraq hər zaman cəmiyyət tərəfindən nifrətlə qarşılanıb. İctimai təhlükələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər hərəkətlər insanların ömürlərini yarımcıq qoymuşdur. Terrorun ən çox rast gəlinən formaları terrorla hədələmə, sui-qəsd, girov götürmə, eləcə də partlayıcı qurğulardan, kimyəvi, bioloji, nüvə və radioloji silahlardan istifadədir. Müasir dünya inkişaf etsə də, yenə də terror hadisələrinə rast gəlirik. Bu gün baş verən hadisələrə, cəmiyyətə yanaşma da fərqlidir. Bəşər sivilizasiyasının yüksək nöqtəsində ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, heç bir məntiqə sığa bilməz. Dünya inkişaf etsə də bu gün ağıla sığmayan terrorların, faciələrin baş verdiyinin şahidi oluruq. Nə qədər müasirləşsək belə insan qanının tökülməsinə susayan, bunu törətməkdən usanmayanlarla hələ də bir zamanda yaşayırıq. İnsanlıq əleyhinə çevrilmiş terrorların günahsız qurbanları olanların faciəli ölümlər hər kəsdə bir nifrət, qəzəb hissini oyadır. Qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması insanlığa qarşı əməldir.

Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 30 aprel, 2009-cu il tarixində baş vermiş faciənin törədildiyi gündən 16 il ötür. Həmin günü o zamanı yaşayan insanlar olduğu kimi yaxşı xatırlayır. Səhər saatlarında 9:30 radələrində keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının Bakı şəhəri Dilarə Əliyeva küçəsində qaz-neft mədən və neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusuna daxil olan cinayətkarın birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açması nəticəsində 12 nəfər həlak olub, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Gülləyə tuş gələnlər arasında təhsil ocağının professorları, müəllimləri, laborantları və tələbələri olublar. Yaralıların 3-ü xarici vətəndaşı idi: ikisi Sudan, biri isə Suriya. Hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsinin, ərazi polis və prokurorluq orqanlarının məsul əməkdaşları gəliblər. Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı cinayətkar özünü öldürüb. Cinayəti törətmiş 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlunun üstündən ona məxsus şəxsiyyət vəsiqəsi, "Makarov" tipli tapança, habelə hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkarlanaraq götürülüb. Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.

Aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasında baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan prezidentinin ehtiyat fondundan həlak olanların ailələrinə 30 min manat, ağır xəsarət alanlara isə 15 min manat birdəfəlik maddi yardım ayrıldı.

16 il əvvəl baş vermiş dəhşətli terror hadisəsi hər kəsin qəlbində dərin iz buraxıb. Belə terror aktları neçə-neçə insan ömrünü yarımçıq qoyur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində faciə qurbanlarının xatirəsinə barelyef qoyulub. Hər il 30 aprel terror qurbanlarının xatirəsi yad edilir.

***Nəzakət ƏLƏDDİNQIZI***











# ACGÖZLÜK: insanın sonu



***Ulu Yaradan tərəfindən təəssüf ki, insan övladına acgözlük kimi bir xüsusiyyət də bəxş olunub. Bəlkə də bəxş olunub ki, əsl insanlığı ortaya çıxarsın; gözü toxlar acgözlərdən fərqlənsin. Və acgözlər sonda dünya malının dünyada qaldığını anlayıb toxgözlərin qazandıqlarına köks ötürsünlər. Onların mənəvi zənginliyinə həsəd etməklə, ömür boyu üst-üstə yığdıqlarının əslində dəyərsiz olduğunu anlasınlar. Bəs belə olan halda nə üçün bəzi insanların gözü acdır? Bilə-bilə ki, sonda hər kəs kimi eyni qayda ilə dünyasını dəyişəcək, bu dünyadan o biri dünyaya heç nə apara bilməyəcək, yenə də acgözdür, yenə də nə isə qazanmağa, mal-dövlətini artırmağa çalışır. Deməli, acgözlük elə bir hissdir ki, həm də insanı sağlam düşünməkdən uzaq edir.***

## Acgözlük həm də anormallıqdır

Acgözlük əslində həm xəstəlik, həm anormallıq, daha böyük mənada isə bəladır. Nə üçün? Elə adamlar tanıyırıq ki, dünya malından doymur ki, doymur. Sanki bir xəstəliyə tutulubmuş kimi mal-dövlət yığır, hər an bunu bir az da artırmağa çalışır, həm də yığdığını elə qoruyur ki, amandır, birdən üstündən bir qəpik o yan-bu yan ola bilər. Belə insanlarda acgözlükdən yaranan ikinci bir xüsusiyyət-simiclik də vardır. Yığır, lakin xərcləmir. Ailəsində həyat yoldaşı, uşaqları nəyəsə ehtiyac duyur, lakin baxmayaraq ki, onu qarşılaya bilər, lakin edə bilmir. Çünki evin kişisi simicdir, mal-dövlətinin çox olmasına baxmayaraq bir qəpik belə xərcləmək istəmir.



© Richard Grange / Barcroft India

Acgözlük həm də anormallıqdır. Çünki insan pul yığmalıdır, mal-dövlət toplamalıdır kimi normal olmayan bir istəyə malik olur. Yəni, sağlam şəkildə düşünə bilmədiyi üçün anormaldır. Hər şeyin özünün olmasını arzulayır, buna can atır. Və topladığını qorumaq üçün canından keçməyə hazırdır. Bütün günü əlində olanları orada-burada gizlədir, fikri-zikri qalır yanında ki, birdən kimsə tapar, kimsə aparar. Beləliklə, anormal və narahat bir həyat yaşayır.

Bütün bunların fonunda isə söyləmək olar ki, acgözlük böyük bir bəladır. Müalicəsi olmayan xəstəlik, çıxışı olmayan yol, qurtuluşu olmayan psixoloji durumdur. Elə bir vəziyyətdir ki, insanı gündən-günə didib-parçalayır, məhv edir. Onda yeni xarakterlər-həsəd, paxıllıq, riyakarlıq, nankorluq kimi xüsusiyyətləri də formalaşdırır.

Hər kəsdə olmadığına görə acgözlüyü bir simptom adlandırmaq daha doğru olardı. Bu, bir şəxsdə də təzahür edir, bir nəsildə-kökdə və ya ümumilikdə bir xalqda da. Bunlara ayrı-ayrılıqda nəzər salaq.

## Qonşunun var, mənim niyə olmasın?..

Bəzən insan o dərəcədə acgöz olur ki, elə bu səbəbdən də, necə deyərlər, min ərşin quyunun dibinə yuvarlanır. Bu o səbəbdən olur ki, kiminləsə bəhsəbəhsə düşür. Onda olanların özünün də sahib olmasına çalışır. Məsələn, qonşunun 2-3 mərtəbəli evi var, mənim də olsun, maşını var, mənim də olsun, uşağına dəbdəbəli toy etdi, mən nə üçün etməyim? Nəvəsinə kiçik toy etdi, mən də etməliyəm, qızına dəbdəbəli ad günü keçirdi, mən də etməliyəm. Bax bunların hər birini kiməsə həsəd etməklə həyata keçirməyə cəhd edən adam zaman-zaman acgözlüyün qurbanı olur. Borc alır, qaytara bilmir, kredit götürür, ödəyə bilmir. Əlində olanı xərcləyir, ehtiyacdan qurtara bilmir.

Axı sənin özünəməxsus evin var, nə üçün imkanların xaricində olanını arzulamalısan. Axı sən maşın almaq imkanında deyilsən, nə üçün kiminləsə bəhs edirsən. Oğluna-qızına dəbdəbəli toy etmək gücün yoxdur, nə üçün bunun üçün özünə problem yaradırsan? Nəvənə kiçik toy etsən də, etməsən də heç bir məna kəsb etmir, nə üçün bunu hökmən etməlisən? Çünki acgözlüklə həsəd hissi bir-birinə qarışıb bəzi insanları məhvə aparan yola çıxarır. Bu yol uzun və keşməkeşlidir. Bu daşlı-çınqıllı yollarda yıxılıb dizlərindən qan süzənlər görmüşük, lakin qalxıb bir az ağrıları keçəndən, yaraları sağalandan sonra eynilə yoluna davam etməyə çalışıb. Nə ağrıları, nə də yaraları onun ac gözünü doyuzdura bilməyib.



Və yaxud da bu yolda digər insanlarla da qarşılaşmışıq. Bəli, onların da gözü acdır, lakin birinci gözüaclardan fərqli olaraq, bunlar mal-dövləti olanlardır. Lakin o mal-dövlətdən bir qəpik belə xərclənməsini istəməyənlərdir. Onlar bu çətin, daşlı yollarla irəliyə doğru addımlayır. Təbii ki, mal-dövlətlərini artıra-artıra, xərcləmədən. Yolun başına çatanda ömür də başa çatır, dünya ilə vidalaşırlar, illərlə yığıb mühafizə etdikləri isə bir neçə ayın, həftənin qurbanı olur. Ətrafindakılar bu mal-dövləti necə dağıdırlarsa, ondan əsər-ələmət qalmır. Hansı ki, sahibi dünya nemətlərindən məhrum qalmaqla onu toplamışdı.



Nəsillər var ki, onları yaşadıqları ərazilərdə hamı acgöz nəsil kimi tanıyır. Bu nəsillərə məxsus adamlar mal-dövlət hərisidir. Yığa bildikcə yığan, doymayan, həm də ürəkləri daş insanlardır. Nə bir yetimin başına əl çəkir, nə qapılarına diləyə gələni əlidolu qaytarır, nə də həyətdə-bacada ayaqlarına dolaşan it-pişiyə bir tikə çörək verirlər. Həyatı yalnız özləri üçün yaşayırlar.

## Acgözlük: həm maddi, həm mənəvi

Acgözlük həm də tək maddiyyat üzərində qurulan bir xüsusiyyət deyil. Mənəvi cəhətdən acgöz olan insanlar da var. Məsələn, yalnız pislik etmək üçün yaranan və pislik etdikcə də gözü doymayan insanlar var. Həyatı yalnız ziyan vurmaqla keçən, bundan ləzzət alan insanlar var. Əxlaqi dəyərləri acgözlüyünə qurban olan insanlar da var. Acgözlüyün bu növləri əslində mal-dövlət hərisi olanlardan daha dəhşətlidir. Belə ki, bu cür insanlar ancaq insanların pis gününə sevinir, pis gün yaşamaları üçün əlindən gələni edir. Və yaxud da qonşuya, qohuma ziyan vuran, bundan doymayan, "daha nə edim",- deyə düşünən, gecə-gündüz yol axtaranlar da var. Eləcə də əxlaqı acgözlüyünə qurban gedən insanlar da var ki, bələləri ilə mübarizə aparmaq daha çətindir. Onlar bu xüsusiyyətləri ilə ailələrinə, əxlaqi dəyərlərə xəyanət edir, yaxınlarının böyük cəhdlərinə baxmayaraq bu yoldan çəkinə bilmirlər.

Beləliklə, acgözlük bu xüsusiyyətlərə malik insanların sonunu vaxtından əvvəl gətirir. Bir el məsəlində deyildiyi kimi, su səhəngi suda sınar, bu insanlar da öz əqidə və əməllərinin qurbanı olurlar. Acgözlük kimi cılız hisslər belə insanların içlərini gəmirməklə, onları vaxtından əvvəl məhv edir. Necə ki, qurd ağacın gövdəsini yeməklə onun qurumasına səbəb olur, bu hisslər də onun kimidir. Zaman-zaman insan övladının sonunu hazırlayır.

## Acgöz həm də nankordur

Başqa cür düşünmək mümkün deyil: acgöz insan həm də nankor olur. Bunu qonşu ermənilərin simasında o qədər bariz şəkildə görmüşük ki, ona görə belə əminliklə söyləyə bilirik. Bu acgözlər süfrəmizin kənarında qır-qırıntı yeyə-yeyə nələrin iddiasında imişlər, illərdir ki, yaxşı gördük. Sən demə özünü miskin vəziyyətə salan qonşumuz əslində acgöz kimi cılız keyfiyyətə malik imiş. Elə bunun üçün də min bir dona girir və istəyinə çatmaq üçün riyakarlıq edirmiş. Bu riyakarlıqla da acgözlükləri ildən-ilə daha çox meydana çıxdı. Torpaqlarımızı işğal etdilər, gözləri doymadı. Soydaşlarımızın mal-dövlətini mənimsədilər, evlərinin dam örtüyündən tutmuş qapı-pəncərəsinədək söküb satdılar, gözləri doymadı. O torpaqların yeraltı-yerüstü sərvətlərini xarici bazarlara daşıyıb valyutaya çevirdilər, yenə gözləri doymadı. Çünki bu xalqın qanında acgözlük var. Bu hissi heç nə ilə azalda bilmirlər. Tarixən bunların acgözlüyü təsdiq də olunub. Digər xalqlar da onların gözlərinin ac olduğunu, heç vaxt doymadığını təsdiqləyib. Və millətlərə onlardan ehtiyatlı olmağı tövsiyə ediblər.

Beləliklə, biz erməniləri tanıyandan onların acgözlüyünə bələd olmuşuq. Həmçinin də acgözlükdən doğan nankorluqlarına. Onlar süfrəmizin kənarında yedikləri çörəyi də unutdular, onlara edilən hörməti də.

İllər, əsrlər sonra da onlar bu xüsusiyyətlərindən əl çəkməyəcək. Ona görə ki, bu cür yaranıblar. Allah-təala onlara belə cılız hissləri verib, "özünüzü dünyada rəzil-rüsvay edin",- buyurub. Elə 2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsi başlayarkən də bunların acgözlüyünün şahidi olduq. İşğal etdikləri azmış kimi, yeni torpaq iddiasına düşmüşdülər. Lakin arzuları ürəklərində qaldı. Yeni acgözlüklərin qarşısı, köhnə acgözlük nəticəsində qazanılanlar əllərindən alındı. Nankorluqları bir daha onunla təsdiq edildi ki, soydaşlarımız yaşayan ərazilərdə daşı daş üstündə qoymamışdılar. Talayıb, sonra da od vurub yandırmış, insanların ev-eşiyini xarabazara çevirmişdilər.

## Acgöz olma, sənin deyil bu saray...

Bəli, dahi Nizami Gəncəvinin dediyi kimi, ey insan, acgöz olma, sənin deyil bu saray. Bu saray dünyadır. Sənsə bu dünyaya qonaq gəlmiş, müəyyən vaxt sonra öz əbədi məkanına qayıdacaq varlıqsan. Belə isə bu dünyadan oğurladıqların, mal-dövlət, bir qarış torpaq, digər mənəvi zəifliyinin nümunələri əbədi sənin olacaqmı, düşünürsən? Xeyr, olmayacaq. Onlar bu dünyaya məxsusdur. O dünya ki, əlindən hər şeyi alıb səni haqq dünyasına yola salır. Səninlə o dünyaya gedən isə yalnız insani duyğular, mənəvi zənginliyin olur. Bu dünyada necə yaşamısansa, neçə-neçə nəsil səni o cür xatırlayır, vəssalam. Bəs belə isə acgöz olmağa dəyərmi? Bunun üçün özünə də, başqalarına da əziyyət verməyə, bu cılız adı daşımağa dəyərmi?..

***Mətanət Məmmədova***

# Əli Kərimli indi də şeytani fikirlər və qarğışlar səsləndirir

## Dağıdıcı müxalifətin paylaşımlarından elə anlaşılar ki, sanki dünya dağılıb, həyat sönüb, ətraf zülmətə qərq olub, insanlar da mövcudluqlarını itiriblər

İnsan öz əxlaqı, ədəbi, mərifəti ilə seçilir, tanınır və hörmət sahibi olur. Vay o hala ki, sadalanan bu keyfiyyətlərdən insan uzaq olsun. O halda həmin insan nəinki yaxınları, ümumilikdə cəmiyyət üçün arzuolunmaz şəxsə çevrilir və daim ittiham olunur. Bunu anlayan həmin şəxs cəmiyyətə qarşı dirəniş göstərir və hər məqamda bədbəğur ifadələr, şeytani fikirlər və qarğışlar söyləyir. Çalışır ki, bununla özünə qarşı olan mənfi münasibətə cavab versin. Baxmayaraq ki, qeyri-insanı rəftarı, münasibəti ilə cəmiyyətin gözündən daha da düşür. Ancaq bu münasibət həmin gözdən düşən insanı narahat etmir və əməllərini davam etdirir. Fikir verin, AXCP sədri Əli Kərimli çıxışlarını və sosial şəbəkələrdə paylaşmalarını "bu qaramat dövr" demək və ya yazmaqla başlayır. Məsələn Əli Kərimli sosial şəbəkə hesabında statusunu "Müstəqillik dövrümüzün qaranlıq, qaramat dövrünü yaşayırıq" yazmaqla başlayır. Başqa bir statusunda isə yazır: " Əziz dostlar tariximizin bu qaramat dövründə mənim yubileyimə diqqət ayırıb ünvanıma dediyiniz xoş sözlər, arzular üçün hər birinizə təşəkkür edirəm!". Bu bədğurun digər statusları da eyni ilə qarğış, ittiham, şər və böhtanlar üzərində qurulub. Jurnalist marağı ilə Əli Kərimlinin, ümumilikdə dağıdıcı müxalif məxluqların, o cümlədən də Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin, Fuad Qəhrəmanlının və digərlərinin son iki illik sosial şəbəkələr üzərindən paylaşımlarını araşdırdım, dəhşətə gəldim, bu məxluqların yüzlərlə statuslarının arasından bir pozitiv, xoş əhval-ruhiyyə yarada biləcək fikrə rast gəlmədim.

### Qürurverici möhtəşəm tariximizi "qaranlıq, qaramat dövr" adlandırılmasını yalnız millətə, dövlətə düşmən kəsilənlər deyə bilər

Səbirli olub, dağıdıcı müxalifətin və xaricdəki antimilli ünsürlərin statuslarını oxusan, elə anlaşılar ki, sanki dünya dağılıb, həyat sönüb, ətraf zülmətə qərq olub, insanlarda mövcudluqlarını itiriblər. Həm də elə güman oluna bilər ki, bizlər yer adlı planeti tərk edib, fərqli qalaktikaya sürgün olunmuşuq. Belə təfəkkür, düşüncəmi olar? İnsan nə qədər gerizəkalı, ağılsız və savadsız olsun ki, gözəlləşən





dünyamızın bir parçası olan Azərbaycanın əldə etdiyi möhtəşəm zəfərləri, böyük qələbələri görməsin. Gərək insanlıq hissindən, bəşəri dəyərlərdən məhrum olasan ki, Azərbaycan insanlarının təmin edilən azad, demokratik, xöşbəxt yaşayışını görməyəsən. Təkcə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın 44 günlük Vətən Savaşı ilə azad edilməsini qeyd etmək kifayətdir ki, ölkəmizin nə böyük zəfərə imza atdığı deyilsin, yazılsın, dillərdə dastana çevrilsin. İllər, qərinələr sonra da Azərbaycan ordusunun Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazandığı qələbə salnaməsi müzakirə ediləcək, təhlillər, şərhlər obyekti olacaq. Dünyanın hərb tarixinin qələbə kitabları siyahısında Azərbaycanın Ermənistan üzərində parlaq qələbəsi ön sırada yazılacaq. Bu qürurverici möhtəşəm tariximizi "qaranlıq, qaramat dövr" adlandırmasını yalnız millətə, dövlətə düşmən kəsilənlər deyə bilər. Necə ki, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Fuad Qəhrəmanlı, həmçinin xaricdəki antimilli ünsürlər Azərbaycanın böyük uğurlarına, qələbələrinə kölgə salmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə edirlər.

### Tofiq Yaqublunun həbsindən siyasi şou yaradılır

AXCP və Mili Şura rəhbərliyi, xüsusilə də Əli Kərimli və Cəmil Həsənli dələduzluq və saxta sənəd hazırlama və istifadə etmə maddələri ilə ittiham olunaraq həbs edilən və məhkəmənin qərarı ilə 9 il azadlıqdan məhrum olunan Tofiq Yaqublunun himayəçiləri rolunda çıxış etməyə çalışırlar. Onların sosial şəbəkələr üzərində paylaşımlarında elə təsəvvür yaratmağa çalışırlar ki, guya T.Yaqublu "süddən çıxmış ağ qaşıqdır" və heç bir günahı, filanı yoxdur. Halbuki, onun cinayət əməlləri istintaq tərəfindən tam sübuta yetirilib. Özü də məhkəmədə cinayəti törətdiyini etiraf edib.

Cinayət işində Tofiq Yaqublunun zərərçəkmiş Elşən Hüseynova Almaniyada vətəndaşlıq verilməsi üçün ondan 25 min avro, 10 min manat pul istəyib. Araçılıq edən Elnur Məmmədov deyilənləri zərərçəkmişə çatdırıb. Həmin vəsaiti alaraq Tofiq Yaqubluya verib. T.Yaqublu və E.Məmmədov Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə), 320-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham edilirlər.

Diqqətçəkən məqam ondan ibarətdir ki, yaxınları belə T.Yaqublunun yanlışlığını dilə gətirir və məhkəmədən ona qarşı humanistlik göstərilməsini xahiş edirlər. Əli Kərimli və Cəmil Həsənli isə onlara təqdim olunan göstərişlərdən kənara çıxmır və hər vəchlə T.Yaqublunun cinayəti törətmədiyini bildirirlər. Hətta sözügedən şəxslər T.Yaqublunun siyasi fəaliyyətinə görə həbs olunduğunu uydururlar. Halbuki, yuxarıda qeyd etdiyimiz kimi ortada T.Yaqublunun aldadıb pulunu aldığı şəxs var. Həmin şəxs razılaşmanın yerinə yetirilmədiyini anladıqdan sonra pulunu geri istəyib. T.Yaqublu isə pulu xərclədiyi üçün geri qaytarmağa imkanının olmadığını söyləyib. Bundan sonra aldadılan şəxs şikayətçi qismində hüquq-mühafizə orqanlarına müraciət edib. Sual olunur biçarə aldadılan şəxs pulunu T.Yaqubluya bağışlamalı idimi? Və ya aldadılan şəxs şantaj və hədələrdən qorxub geri çəkilməli idimi? Azərbaycan hüquqi dövlətdir. Hər bir vətəndaşın hüquqları qanunla qorunur. Ölkəmizdə kiməsə imkan verilə bilməz ki, müxtəlif şirnikləndirici vədlərlə başqasının əmlakı ələ keçirilsin. Bunu özünü "savadlı hüquqşünas" adlandıran Əli Kərimli də bilməmiş deyil. Anlayır, özü də çox yaxşı bilir. Sadəcə, içində olan dövlətin uğurlarına yönəlik paxıllıq hissi, xalqın yüksək əhval-ruhiyyəsinə olan qısqanc münasibəti, ölkəmizdə hüququn aliliyinin təmin olunması, azad, demokratik cəmiyyətin formalaşmasına olan gözü götürməməzlik və xarici maraqlı dairələrdən asılı olması reallıqları olduğu kimi qəbul etməsinə imkan vermir. Bu isə xəbislik, həm də riyakarlıqdır. Beləcə, Ə.Kərimli ömrünün axırına qədər deyinəcək, danışacaq və beləcə yox olub gedəcək.

***İLHAM ƏLİYEV***

---

# Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb

Prezident İlham Əliyevin son iyirmi bir ildəki xarici siyasəti dəfələrlə sübut etmişdir ki, o, istənilən görüşdə, müsahibədə, qəbulda nə danışırsa, bütün fikirləri səmimidir, dediyi sözlərin hamısının üstündə durur, imzasına hörmətlə yanaşır, dost və tərəfdaşlarına yüksək səviyyədə sədaqətlidir. Bu gün Azərbaycan yürütdüyü məqsədyönlü və praqmatik xarici siyasəti ilə beynəlxalq aləmdə nüfuzunu artırmaqla yanaşı, etibarlı tərəfdaş imicini də getdikcə möhkəmləndirir, bölgədə və dünya arenasında mühüm aktorlardan birinə çevrilir. Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasətin prioritetini dünyanın bütün ölkələri ilə xüsusilə də sərhəd qonşuları ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək təşkil edir. Bu baxımdan, ölkəmizin yaxın qonşularından olan İran İslam Respublikası ilə münasibətlərin yaxşılaşdırılması, əlaqələrin genişləndirilməsi və əməkdaşlığın getdikcə möhkəmləndirilməsi böyük əhəmiyyət kəsb edir.

İran və Azərbaycan xalqları İslam aləminə mənsub olan xalqlardır və əsrlər boyu bərabər yaşayıblar. Elmi, mənəvi, mədəni əlaqələr bu xalqları tarix boyu birləşdirib. Azərbaycanla İran arasında diplomatik münasibətlərin zəngin tarixi keçmişi vardır. Müasir dövrdə iki müstəqil dövlət arasındakı əməkdaşlıq əlaqələrinin əsası xalqımızın Ümum-



**Şirincan MƏMMƏDLİ, *"Tərəqqi" medallı tarix müəllimi***

milli Lideri Heydər Əliyev tərəfindən qoyulub. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra İranla qonşuluq və əməkdaşlıq siyasəti yürüdülüb ki, bu da münasibətləri normallaşdırıb və inkişaf etdirib. Ümummilli Liderin siyasətini layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də ölkələrimiz arasında əlaqələri uğurla inkişaf etdirir. Bu gün Azərbaycan və İran dost, qardaş ölkələr, mehriban qonşulardır. Bu gün qarşılıqlı hörmətə və dostluğa əsaslanan tarixi və mədəni əlaqələrimiz həm ikitərəfli formatda, həm regional müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində yüksələn xətlə inkişaf edir. Bütün bunları şərtləndirən əsas amil kimi hər iki ölkənin siyasi rəhbərliyinin siyasi iradəsi xüsusilə vurğulanmalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il aprelin 9-da İrana səfəri zamanı tərəflər arasında bir sıra sazişlər imzalanıb.

İki ölkə arasında keçirilən bütün görüşlər və danışıqlar onu deməyə əsas verir ki, Azərbaycanla İran arasında tarixi köklərlə biri-birinə bağlı olan əlaqələr gündən-günə inkişaf etməkdədir və ölkə başçılarımızın səyi ilə bu əlaqələr daha genişmiqyaslı xarakter almaqdadır. İran Azərbaycan ilə ən böyük sərhədə malik dövlətdir və qarşılıqlı əlaqələrimizin tərəflər üçün səmərəli formada davam etməsi rəsmi Bakı ilə Tehranın maraqlarına cavab verir.

Bu mənada, cari ilin 28 aprelində İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfəri həm Azərbaycan, həm də Tehran üçün çox böyük əhəmiyyət kəsb edən siyasi hadisə oldu. Türk əsilli İran liderinin Bakıda olduqca isti, doğma insan kimi qarşılanması təsadüfi deyildi. Prezident Məsud Pezeşkian da özünü burada olduqca rahat, xöşbəxt hiss edirdi. O, Azərbaycanda olduğundan qürur duyduğunu, özünü Ərdəbildəki, Təbrizdəki kimi hiss etdiyini bildirdi. Pezeşkianın Bakıda ana dilimizdə danışması, dahi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın məşhur "Heydər babaya salam" şeirindən olduqca dərin məzmunu olan bir bəndi oxuması xüsusi diqqət cəlb etdi. Bir çox ortaq dəyərləri bölüşən İran və Azərbaycanı bir-birinə tarixi uzun illərə söykənən mədəni, dini əlaqələr bağlayır. Müəyyən dönəmlərdə ölkələrimiz arasında fikir ayrılıqları olsa da, hakim siyasi iradə bu problemlərin dərinləşməsinin qarşısını alıb. Bu mənada Prezident Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri münasibətlərin gələcək kursunun müəyyənləşməsinə mühüm təsir göstərəcək. Hər iki ölkənin liderləri qarşılıqlı anlaşma nümayiş etdirərək əməkdaşlığın genişləndirilməsi və etimadın bərpası üçün ciddi cəhdlər göstərirlər.

Azərbaycan Prezidenti İlham Əliyev keçirilən birgə mətbuat konfransında vurğuladı ki, hər iki tərəf əlaqələrin inkişafına çalışmalıdır və çalışır. İmzalanan sənədlər də onu göstərir ki, ölkə rəhbərlikləri bütün istiqamətlər üzrə bir-birinə daha yaxın olmağa çalışır. Məqsəd birdir. İran-Azərbaycan əlaqələrini yüksək səviyyəyə qaldırmaq. Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb. Tarixi əlaqələrimiz yenidən bərpa olunmalı və inkişaf etdirilməlidir. Tarixin müəyyən dönəmlərində Azərbaycan-İran münasibətlərində müşahidə olunan gərginlik bu gün aradan qalxmaq üzrədir. İran rəhbərliyində təmsil olunan ayrı-ayrı güclərin arasındakı fikir ayrılıqları bəzən əlaqələrimizin lazım olan səviyyədə inkişafına mane olur. Odur ki, biz də milli maraqlarımızı əsas götürərək balansı qorumağa çalışırıq. Amma bu gün Pezeşkianın timsalında münasibətlərimizi gücləndirmək üçün yeni səhifə, imkanlar açılıb.

Azərbaycanın xarici siyasətində İran İslam Respublikası ilə əlaqələr həmişə önəmli yerlərdən birini tutmuşdur. Bu isə iki qonşu və dost ölkənin əməkdaşlıq əlaqələrinin daha da dərinləşəcəyindən və strateji tərəfdaşlıq səviyyəsinə yüksələcəyindən xəbər verir. Bu, eyni zamanda, həm xalqlarımıza, həm bölgəyə, həm də dünyaya ciddi mesajdır ki, İran-Azərbaycan birliyi, dostluğu sarsılmazdır.

*EKSPERT RƏYLƏRİ*

# "Hər bir meyvə-tərəvəz öz mövsümünə görə kodlaşdırılıb"

İstixana şəraitində və açıq təbiətdə yetişdirilən meyvələrin oxşar və fərqli cəhətləri, eləcə də insan orqanizminə xeyri və zərəri nələrdir? SİA mövzu ilə əlaqədar ekspertlərin fikirlərini öyrənib.





Qida üzrə baş mütəxəssis Ağa Salamov: "Təbiətin öz mövsümündə yetişdirdiyi meyvə və tərəvəzlər insan orqanizminə daha faydalıdır və daha çox lazımdır. Çünki hər bir meyvə və tərəvəz öz mövsümünə görə kodlaşdırılıb. Məsələn, heyva qış meyvəsidir. Heyvanın bronxlara və öskürəyə faydası çoxdur. Nəzərə alsaq ki, insanlar qışda daha çox xəstələnirlər. İstixanalar məcburiyyət qarşısında olmalıdır. Çünki insanlar artıq meqopolis həyata öyrəşiblər. Hazırda əkinçilik kəndlərdə o qədər də yaxşı deyil. Fərdi təsərrüfatlar aşağı səviyyədədir. Ona görə də milyonlarla insan Bakı şəhərində yaşayır ki, bu insanları da qida ilə təmin etmək lazımdır. Meyvə və tərəvəzlərə ehtiyac var ki, ilboyu istixanalar bunu təmin etməlidirlər. Təbii ki, mövsümündə yetişən meyvə və tərəvəzin faydaları daha çoxdur".





Qida təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova: "Meyvə-tərəvəzlər insan orqanizmini vitamin və minerallarla təmin edən, eyni zamanda lifli qida məhsulu hesab olunur. Sağlamlıq üçün çox faydalıdır. Mövsümündə təbii şəkildə yetişdirilən meyvə-tərəvəzlər daha çox faydalıdır. Artıq son dövrlərdə istixana şəraitində də meyvələr yetişdirilir ki, onun üstünlükləri ilə yanaşı zərərləri də var.

İstixana şəraitində yetişdirilən meyvələr iqlimə və fəsillərə bağlı olmadan ilin hər fəslində yetişdirilir. Burada süni istilik və yaxud da rütubət lazımdırsa, bunlar insan tərəfindən tənzimlənərək meyvə-tərəvəzə uyğun şəkildə verilir. Ziyanvericilərə qarşı istifadə olunan pestisitlər, herbisitlər və sürətli böyümə üçün istifadə olunan gübrələr və digər kimyəvi maddələr onun həm dadında, həm tərkibində müəyyən dəyişiklərə gətirib çıxardır. Əgər bu qeyri-peşəkar şəkildə istifadə olunubsa, bu zaman



kimyəvi maddələrin miqdarı çox olduğundan meyvələr və tərəvəzlər daha çox toksin maddələr yığır. Antioksidant səviyyəsi istixana şəraitində yetişdirilən meyvə tərəvəzlərdə olmur.

Açıq havada, təbii şəkildə öz mövsümündə yetişən meyvələrin dadı, qoxusu digərlərinə nisbətən daha faydalı olur. Lakin bunların hər biri fərqli ölçüdə, rəngi günün işığına görə bəzi yerləri daha tünd, bəzi yerləri daha açıq olsa da daha faydalıdır. Amma istixana şəraitində olanda hər biri daha gözoxşayan, daha parlaq, eyni ölçüdə, eyni formada olur. Ümumi götürsək, hər biri orqanizmi liflərlə, maye ilə təmin edən qida məhsuludur".

***Nuray Paşşanlı***

## FELYETON



# O iynəni bəri gətir...

Yaxın qohumlardan biri nağıl edir ki, uşaqlarla birlikdə kəndə getmişdik. Anam bizimlə hal-xoş edər-etməz, nəvələri ilə görüşər-görüşməz gəlini Südabəni səslədi ki, ay gəlin, o iynə-sapı bura gətir. Dedim, ay ana, nə edirsən iynə-sapı bu dəqiqə? Nəyinə lazımdır? Uzaq yol gəlmişik, bir gəl, otur, görək nə var-nə yox. Dərdimiz nədir, odumuz nədir? İş həmişə var da, bizi gözləyirdin elə? İşini saxla biz gedəndən sonraya. Gəlinimiz də bir yandan düşdü anamın üstünə ki, ay ana, bir səbir elə də. Nə olub ki, səni qovalayan var? Nə edəcəksən, edərsən də, bir qızından, nəvələrindən doy, ondan sonra.

Arvad nə ağ dindi, nə qara. Başını saldı aşağı, yaxşı, nə deyirəm, siz deyən olsun, dedi. Lakin görürəm ey, bu arvad heç rahat deyil. Anama bələd olduğum üçün üstünü çox vurmadım. Bilirdim ki, o, bir işi olanda və ya yarımçıq qalanda tamam etməyənə qədər narahat olur.

Öz-özümə dedim, əşi, bu arvad yaşlandı da xasiyyətindən əl çəkmədi ey. İlin bir başı gəlmişik, gəlib bizimlə oturmaqdan, nəvələri ilə söhbətləşməkdən, durub iynə-sap axtarır. Elə il boyu işdir də, görürsən.

Nə isə, arvadı bir təhər ki, fikrindən vaz keçirib, əyləşdirdik yanımızda. Söhbətləşdik, dedik-güldük. Qonşu Həsənin oğlunun inəyi, dananı satıb şəhərə köçməsindən danışdıq. O biri qonşu Həsənxanın oğlunun ataanasını evin altında illərdir, tək qoyub Rusiyada yaşamasından söhbət etdik. Sağ tərəfdəki qonşunun gözünün ağı-qarası bircə balasının atasının yasına gəlib çıxa bilmədiyini nağıl etdi anam. Sol tərəfdəki qonşunun qızının qayınana ilə bir yerdə yaşamaq istəmədiyi üçün boşanıb gəlib atasının evində oturduğunu da danışdı anam.

Kənddə kəndlik qalmadığından söhbət etdik. Əvvəlki kənd hara, bugünkü hara, dedi anam: kəndin dadını qaçırıblar. Qapıların çoxu qıfıllıdır, yaydan-yaya gələn ola, ya olmaya. Nə təndirə, nə samovara od salan var. Kəndlinin əkib-biçdiyinə alverçilər elə qiymət qoyur ki, sata bilmirlər. Qalır əlində, xarab olur. Deyir, ta niyə əkim ki?.. Məcbur qalıb o da şəhərli kimi gedib bazardan alıb gətirir. Ta bu, kənddə yaşamaq olmadı ki...

Nə isə, anamla gecə yarıyadək aranı dağa, dağı arana gətirdik. Xeyli söhbət etdik, ötənləri xatırladıq. Nə vaxt yuxuya dalmışıq, xəbərimiz olmayıb.

Səhər-o baş yerimdə qurcalananda, gördüm ki, anam oturub, eynəyini də taxıb gözünə, tikiş tikir. Başladım deyinməyə ki, ay ana, nə edirsən, qoy bir səhərin gözü açılsın da. Gün qurtardı məgər? Özünə nə üçün zülm edirsən, köməkli edərdik də.

Anam:

-Ay bala, dünəndən elə bil iynə üzərində oturmuşam, dedim, bu qızın niyə bir iynə-sapı yox idi ki, bu uşaqlar əyin-başı belə cırıq-cırıq şəhərdən kəndə gəlib çıxıblar?

Anam belə deyəndə dik atıldım. Nə görsəm yaxşıdır? Anam oğlumla qızımın şalvarındakı yarıqları tikib qoyub bir kənara. Qızımın da "kropunun" ətəyinə özünün köhnə gecəliyindən bir parça kəsib, əlindəcə deyinə-deyinə tikir: ah, qızım, mən səni belə öyrətmişəm? Qadının əlində iynəsi-sapı olar, uşağın-böyüyün cırılanını-yırtılanını tikər. Bu nədir, uşaqların dizi-budu, o yekəlikdə qızın qarnı-başı bayırda qalıb.

Bilmədim gülüm, yoxsa səhər-səhər hirsimdən ağlayım. Dedim, ay zalımın qızı, onlar yırtılmayıb ey, şalvarlardakı cırıq deyil, yarıqdır, dəbdir. Qızın köynəyini niyə o hala qoymursan, durub dünyanı dağıdacaq. Göbəyi açıq köynəklər dəbdir ey, qısalığı ondandır. Mən belə deyəndə arvad eynəyin altından mənə tərs-tərs baxdı, baxdı, bircə kəlmə onu dedi ki, kül sənin kimi ananın başına.

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
1 may
2025-ci il

# Bakıda ucuz evi necə və harada almaq olar?

*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*





**“Satmaq öhdəliyi ilə mənzillərin uzunmüddətlik kirayə verilməsi mexanizminə 2020-ci ildən start verilib. Həmin tarixdən bu günə qədər, təqribən 4 il ərzində 6 min 974 mənzil Bakı, Xırdalan, Saray və Sumqayıt şəhərlərində sakinlərə verildi. Bu proses bu gündə davam etməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyib.**

Ramil Osmanlı sözlərinə belə davam edib: ”Ümumilikdə, paytaxtın müxtəlif ərazilərində və qeyd etdiyim ünvanlarda bununla bağlı müxtəlif zamanlarda tam təmirli mənzillər öz sahiblərinə təqdim olunur. Deməli bu kirayə öhtəliyi ilə mənzillərin uzun müddətlik kirayə mexanizmi şəxsin öz adına deyil. Bu ipoteka krediti zəmanət fondu tərəfindən təmirli şəkildə əldə olunmuş, alınmış və sonradan vətəndaşlara təklif olunan mənzillərə aiddir. Burada şərtlər var. Şərtlər ondan ibarətdir ki, vətəndaş mütləq şəkildə aylıq ödənişi 12 mislin yəni 1 illik aylıq ödənişi ödəməlidir. Azərbaycan manatı ilə verilir. Kirayə müqaviləsi bağlanan gündən müğavilə edilir.

Minimak müddəti 3 ildir, Maksimum müddəti 25 ildir. Yəni o deməkdir ki, 3 ildən tez kirayə öhtəliyi bağlana bilməz. Maksimum 25 ildir. Burada vətəndaş mütləq Azərbaycan Respublikasının vətəndaşı olmalıdır, məhkumluluğu olmamalıdır. Müraciət vaxtı keçmiş öhdəliklər olmamalıdır. Müraciət anında yaşı 60 olmalıdır , yəni yaşı 60-ı keçməməlidir, rəsmi gəlirlərə malik olmalıdır. Eyni zamanda paralel olaraq eyni anda sonda iki kirayə müqaviləsi üzrə kirayə münasibətlərində olmamalıdır.

Tələblərdən biri də ondan ibarətdir ki, həmin mənzillər ipoteka tələblərindən alınan mənzillər 2013- cü il yanvar ayının birindən bu yana inşa edilmiş binalardan alınmalıdır. Şəhərsalma və tikinti məcəlləsi qəbul olunduqda, qüvvəyə mindiyi tarixdən bu yana tam təmirli qaz, su və elektirik ilə təcis olunur. Eyni zamanda təbii ki, müvafiq tikinti standartlarına uyğun şəkildə inşa olunmuş təmirli mənzillər. Bax tələblər bundan ibarətdir. Üstünlüyünü qeyd etdim. Yəni bunun ipoteka mexanizmdən fərq ondan ibarətdir ki, burada vətəndaşdan ilkin ödəniş tələb olunmur. İlkin ödəniş yoxdur sadəcə aylıq kirayə məbləğinin 12 mislini qabaqcadan ödəmək tələb olunur şərti olaraq. Eyni zamanda təbii ki, qeyd etdiyim kimi mənzillər ipoteka kredit zəmanət fondunun tərəfindən mütləq siyahıda yəni müvafiq elektron sistemdə yerləşdirilmiş olmalıdır. Vətəndaş da elektorn müracit edib , seçim etməlidir. Yəni üstünlük tərəfləri bundan ibarətdir”.

***Ayşən Vəli***

## Elan

Bakı Texniki Kolleci tərəfindən Məmmədov Mirzəbala Əlibala oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bank kartlarından oğurluq davam edir - bir gündə 36 min manat oğurlanıb...

***Vətəndaşların bank kartlarından oğurluqlar davam edir. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır.***



Bu məlumatlar naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında Sizə zərər vuracaqlar. Aprelin 29-da ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 14900, 6900, 2997, 1863, 1600, 1530, 1000, 1000, 1000, 999, 360, 346, 300, 268, 212, 188, 100, 100, 100, 88, 50 manat pul vəsaitləri bank kartlarından oğurlanıb.

”Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var”- deyə məlumatda qeyd edilir.

# Zənginlərə BƏD XƏBƏR: Maltada ”qızıl pasport” almaq qadağan edildi!

***Avropa Məhkəməsi Malta barədə qərar verib. Belə ki, məhkəmə bu ölkənin xarici vətəndaşlara vətəndaşlıq verilməsi ilə bağlı ”qızıl pasport” proqramını bağlamaq qərarına gəlib. Qərarda qeyd olunur ki, Avropa İttifaqı (Aİ) ölkələrində vətəndaşlıq satıla bilməz.***




Qeyd olunur ki, Avropada zəngin şəxslərə vətəndaşlıq almaq imkanı verən bu cür proqramlar geniş yayılsa da, son illərdə onların transmilli cinayətkarlığa və sanksiyalardan yayınmağa şərait yaratdığı ehtimal olunur. Bu səbəbdən proqramlara qarşı hüquqi və siyasi addımlar atılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**